RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 4 (9171) 10 YANVAR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Heydər Əliyev mənim həyatımda




## Böyük ömrün səhifələri

*Heydər Əliyevin ictimai-siyasi və dövlət rəhbərliyi ilə bağlı çoxsaylı məqalələr, əsərlər yazılmış, cild-cild kitablar buraxılmışdır.*

Yeni Azərbaycan Partiyası uzun illər boyu yazılan məqalələrin toplanaraq ayrı-ayrı kitablara çevrilməsi sahəsində səmərəli işlər görmüşdür.

Heydər Əliyev Fondu da bu məsələyə xüsusi diqqət və qayğı ilə yanaşmışdır.

**Heydər Əliyevin bir insan kimi fəaliyyəti, böyük ürək sahibi və qayğıkeş rəhbərliyi, ayrı-ayrı insanlara xüsusi mərhəməti, çətinliyə düşənlərə daim əl uzatması ilə bağlı saysız-hesabsız faktlar da mövcuddur.**

Bu tip xatirələrin toplanması, qələmə alınması və kitablara çevrilməsi missiyasına "Azərbaycan" qəzeti xüsusi həssaslıqla yanaşmışdır.

Qəzetimizdə **"HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA"** adlı xüsusi rubrika açılmış, müxtəlif insanların müxtəlif dövrdə Ulu Öndərlə bağlı xatirələri sistemli şəkildə dərc edilmişdir.

**Çox keçmədən "HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA" adlı ilk kitab (Bakı, "Təhsil" nəşriyyatı, 2005, 372 səh.) işıq üzü görmüşdür.**

Kitab böyük maraqla qarşılanmış, cəmiyyətdə güclü əks-səda doğurmuşdur.

Uzun illər davam edən bu rubrikada gedən materialların məzmunu və dəyəri, Ulu Öndərin bir insan kimi əzəmətini göstərən real faktların insanlar tərəfindən məhəbbətlə anılması **"HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA"** adlı daha bir ikicildliyin (Bakı, 2013, 396 səh. və Bakı, 2013, 184 səh.) yaranması ilə nəticələndi.

→ 4



## Məni 13 yaşlı Heydərə tapşırdılar

"...30-cu illərin ortalarında Naxçıvan kəndlərində qızların təhsil almasına hələ də imkan yaratmırdılar. Bizim Şahbuz rayonunun Nurs kəndində də hesab edirdilər ki, qız uşağı üçün natamam orta təhsil kifayətdir. Lakin mən oxumaq istəyirdim. Bu arzumu duyan dayım valideynlərimlə uzun müzakirələrdən sonra təhsilimi Naxçıvan Pedaqoji Texnikumunda davam etdirməyə onları razı sala bildi. Beləliklə, 1936-cı ilin yayında sənədlərimi texnikuma vermək üçün dayımla birlikdə Naxçıvan şəhərinə gəldik. Texnikumun qarşısında adam əlindən tərpənmək mümkün deyildi. Növbəyə dayandıqda dayım ortayaşlı bir gənclə həmsöhbət oldu. Adının Həsən olduğunu deyən bu adam Bakıda yaşadığını, indi kiçik qardaşının imtahanı üçün bura gəldiyini dedi və kənarda dayanmış, elə mənlə həmyaşıd olan bir yeniyetməni göstərdi. Bu vaxt imtahan başladı.

İmtahan zamanı həmin yeniyetmə mənlə yanaşı əyləşmişdi və tez-tez "kömək lazımdırmı", - deyə soruşurdu. Mən isə hər dəfə "ehtiyac yoxdur", - cavabını verirdim. İmtahan hər ikimiz üçün müvəffəqiyyətlə bitdi. Çölə çıxanda ikimizi də dayım və onun qardaşı təbrik etdilər. Sonra aramızda qısa söhbət oldu.

Dayım bu yeniyetməyə müraciətlə dedi: "Sənin qardaşın Həsənlə biz dost olduq, indi sən də gərək şəhərdə bu qıza göz-qulaq olasan, onu özünə bacı sayasan, Zərqələmi sənə tapşırıram, sənə arxayın oluram. Hə, axı sənin adın nə oldu?"

O, şəstlə cavab verdi: "Dayı, arxayın ol, qızınla heç kimin işi ola bilməz, adım isə Heydərdir..."

→ 5



# Keçən il də Azərbaycan idmanı üçün uğurlu il olmuşdur

**Yanvarın 9-da 2022-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlət başçısı tədbirdə çıxış edib.**

### Prezident İlham Əliyev ötən ilin idman yekunlarına həsr olunmuş mərasimdə iştirak edib

## Prezident İlham Əliyevin çıxışı

-Əziz dostlar, bu gün biz ilin idman yekunlarını müzakirə edəcəyik. Hər il olduğu kimi, keçən il də Azərbaycan idmanı üçün uğurlu il olmuşdur. Bütövlükdə ölkə miqyasında görülmüş işlərə yüksək qiymət vermək olar. Çünki keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra edildi, Azərbaycanın dinamik inkişafı təmin olundu. İdman da həyatımızın tərkib hissəsi olduğu üçün, əlbəttə ki, ümumi tendensiya çərçivəsində inkişaf etmişdir. Bunu həm idmançılarımızın qələbələri göstərir, eyni zamanda ölkəmizdə keçirilmiş müxtəlif beynəlxalq yarışlar Azərbaycanı bir daha idman ölkəsi kimi təsdiqləyir. Bütövlükdə son illərdə aparılan siyasət bu gün öz gözəl nəticələrini verməkdədir.

İdmançılar beynəlxalq yarışlarda 800-dən çox medal qazanmışlar, onlardan 300-ə yaxını qızıl medaldır. Doğrudan da, böyük nailiyyətdir. Çünki dünyada idman sahəsində rəqabət artır, yeni idman ölkələri meydana çıxır. Ona görə hər il bu yüksək nəticələri göstərmək, öz gücünü təsdiqləmək asan məsələ deyil.

Dünya, Avropa çempionatlarında idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etmişlər. Beynəlxalq yarışlar arasında xüsusilə V İslam Həmrəyliyi Oyunlarını qeyd etmək istərdim. Bildiyiniz kimi, 5 il bundan əvvəl Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan komanda hesabında birinci olmuşdur. Bu, tarixi qələbə idi və bu dəfə Türkiyənin Konya şəhərində 56 ölkə arasında idmançılarımız 99 medalla 4-cü yerə layiq görülmüşlər. Bu bir daha Azərbaycanın idman sahəsindəki uğurlarını təsdiqləyir. Çünki İslam Həmrəyliyi Oyunlarında rəqabət çox böyük idi, demək olar ki, bütün komandalar əsas heyətlə təmsil olunurdular. Gərgin mübarizə zamanı 4-cü yeri tutmaq, əlbəttə ki, böyük qələbədir, böyük nailiyyətdir.

Bu oyunları biz izləmişik və əfsuslar olsun yenə də qeyd etməli oluruq ki, hakim ədalətsizliyi bizi bir neçə medaldan məhrum etmişdir. Buna baxmayaraq, bu böyük nailiyyət, - mən bunu qələbə hesab edirəm, - bir daha Azərbaycan idmanının gücünü təsdiqləyir və göstərir ki, Azərbaycanda idmanın inkişafı ardıcıl xarakter daşıyır. Çünki 5 il əvvəl Bakıda iştirak etmiş idmançılarımızın bir çoxu Konyada İslam Həmrəyliyi Oyunlarında iştirak etmirdi. Beləliklə, nəsillər dəyişir, ancaq uğurlarımız sabit qalır və bu bir önəmli məsələyə diqqətimizi çəkir - yəni o mənada ki, burada da biz inkişaf və uğur görürük, nəsillər dəyişdikcə görkəmli idmançılarımızın təcrübəsi elə bil ki, gənc idmançılara təhvil verilir. Yəni Azərbaycanda yetişən gənc idmançılar bizim idman şöhrətimizi bundan sonra da yüksəklərdə saxlayacaqlar və bu, daimi proses olmalıdır.

Gənc idmançıların hazırlanması, əlbəttə ki, mütəşəkkil qaydada təmin edilməlidir. Son vaxtlar bu sahədə daha məqsədyönlü fəaliyyət də göz önündədir, xüsusilə seleksiya işləri.

→ 2



## İşğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafına İlham Əliyevdən mühüm dəstək

Prezident İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı fərman imzalayıb

→ 2

## "Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat - GUAM iştirakçısı olan dövlətlərin konsulluq məsələlərində qarşılıqlı yardım göstərilməsi haqqında" Konvensiyanın təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat - GUAM iştirakçısı olan dövlətlərin konsulluq məsələlərində qarşılıqlı yardım göstərilməsi haqqında" 2022-ci il sentyabrın 20-də Nyu York şəhərində imzalanmış Konvensiya təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2022-ci il*

## Birinci vitse-prezident Mehriban Əliyeva Milad bayramı münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Milad bayramı münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:**

"Milad bayramı münasibətilə Azərbaycanın xristian icmasını səmimi-qəlbdən təbrik edir, bütün həmvətənlərimizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram!"




## Vətəndaşların sosial rifahı dövlət siyasətinin prioritetidir

Prezident İlham Əliyevin sosial siyasətinin əsas prioritet istiqaməti vətəndaşların rifah halının davamlı yaxşılaşdırılmasıdır. Ölkə rəhbərliyi sosial məsələlərə olduqca həssas və diqqətli yanaşır. Bu gün Azərbaycan sözügedən sahədə bir sıra ölkələrlə müqayisədə çox öndədir. Odur ki, əvvəlki sərəncamlar kimi, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncam da vətəndaşlarımızın sosial müdafiəsinə, onların güzəranının yaxşılaşdırılmasına müsbət təsir göstərəcək.

→ 7

## Sarsılmaz iradə

### Şaxtalı kəskin hava şəraiti ekofəalların Laçın-Xankəndi yolundakı aksiyasına mane ola bilmir

30 gün ərzində bir gün belə olsun tələblərindən dönməyən, şüarlarını səsləndirən, yorulmadan iradə, əzm nümayiş etdirən aksiya iştirakçıları məsələ həll olunana qədər etiraz aksiyasını davam etdirəcəklər. Bu birliyi, əzmi şaxta, boran belə yıxa bilmirsə, görünən odur ki, heç kim sındıra bilməyəcək.

→ 7

## İrəvanda anti-Rusiya etirazları böyüyür

Münasibətlərin pisləşməsi fonunda Ermənistan sosial-iqtisadi, siyasi cəhətdən ağır vəziyyətə düşərək regionda daha zəif mövqe sahibinə çevriləcək. Belə ki, Ermənistanda sürətlənən iqtisadi tənəzzül bu ölkədə indi yeni işsizlər ordusunun yaranmasına, fəaliyyətini dayandıran müəssisələrin sayının sürətlə artmasına səbəb olur.

→ 8

# Keçən il də Azərbaycan idmanı üçün uğurlu il olmuşdur

## Prezident İlham Əliyev ötən ilin idman yekunlarına həsr olunmuş mərasimdə iştirak edib

*Əvvəli 1-ci səh.*

Bölgələrdə keçirilmiş çoxsaylı tədbirlər gəncləri, uşaqları, yeniyetmələri idman bölmələrinə cəlb etmək üçün daha böyük imkanlar yaradacaq.

Son bir neçə il ərzində bütün ölkə üzrə müxtəlif yarışlar keçirilmişdir, mən bunu çox yüksək qiymətləndirirəm. Gənclər və idman naziri qarşısında qoyulan vəzifələrdən biri də məhz bu idi ki, bölgələrdə idman canlansın və bir çox yarışlar keçirilsin. Bu siyasət həm idman uğurlarımızı şərtləndirəcək, eyni zamanda gənclər, yeniyetmələr, uşaqlar uşaqlıq yaşlarından idmana cəlb ediləcək və bunun onların tərbiyəsi üçün çox böyük əhəmiyyəti var. Çünki idman həm fiziki gücdür, həm də özündə fiziki güc hiss edən hər bir insan, adətən, mənəvi cəhətdən də sağlam olur. Bizim görkəmli idmançılarımızın uğurları və nümunəsi bütün gənc idmançılar üçün örnək olmalıdır. Çünki bizim idmançılarımız həyatda, cəmiyyətdə, məişətdə də özlərini ləyaqətlə aparırlar və idman arenalarında qazanılmış uğurları adi həyatda da öz hərəkətləri ilə təsdiqləyirlər. Beləliklə, gənclərdə, uşaqlarda idmanla məşğul olmaq, görkəmli idmançılara oxşamaq həvəsi daha da böyük olur. Əlbəttə ki, idmana dövlət dəstəyi - bunun da xüsusi əhəmiyyəti var. Biz bunu Azərbaycanın timsalında görmüşük ki, idmana, idmançılara diqqət olan yerdə, qayğı olan yerdə, hörmət olan yerdə, əlbəttə, nəticələr də olacaq.

İdman hər bir ölkənin ictimai həyatının önəmli bir hissəsidir. Bəzi ölkələrdə bu, prioritet sayılır, Azərbaycandakı kimi. Bəzi ölkələrdə sayılmır. Amma mən hesab edirəm ki, biz düzgün yoldayıq. Çünki sağlam həyat tərzinin təbliğ edilməsi hər bir ölkə üçün önəmli olmalıdır.

Sevindirici hal ondan ibarətdir ki, bu gün idmanla məşğul olmaq üçün bütün imkanlar var. Bölgələrdə 50-yə yaxın Olimpiya İdman Kompleksi yaradılmışdır, bu proses davam etdirilir. Eyni zamanda biz Bakı şəhərində ən






mötəbər idman yarışlarını qəbul etmişik və yeni yarışları qəbul edəcəyik. Ölkəmizdə həm dünya, həm Avropa çempionatları keçiriləcək, Olimpiya oyunlarının təsnifat turnirləri də əvvəllər keçirilmişdir, gələcəkdə də bu, istisna deyil. Yay Olimpiya Oyunlarına hazırlığın son mərhələsindəyik. 2023-cü il bir çox parametrlər üzrə həlledici il olacaqdır. Ona görə bizim bütün idman ictimaiyyətimiz, nazirlik, Milli Olimpiya Komitəsi, federasiyalar, klublar, idman cəmiyyətləri, əlbəttə, əsas istiqaməti bunda görməlidirlər ki, Azərbaycan Yay Olimpiya Oyunlarında da öz gücünü təsdiqləsin.

İdmanın kütləviliyinə gəldikdə isə, hesab edirəm ki, bölgələrdə təbliğat daha geniş vüsət almalıdır. Biz son vaxtlar Bakı şəhərinin parklarının bir neçəsində açıq havada idmanla məşğul olmaq üçün şərait yaratmışıq, trenajorlar quraşdırılıb. Hesab edirəm ki, biz bu təcrübəni bütün bölgələrə aparmalıyıq, orada tətbiq edilməlidir. Nazirlik, yerli icra orqanları bu məsələ ilə ciddi məşğul olsunlar. Çünki hər bir insanın bəlkə həm vaxtı, həm də maliyyə imkanları olmur ki, idman zallarına getsin. Ona görə açıq havada, - nəzərə alsaq ki, Azərbaycanın əksər yerlərində hava şəraiti il boyunca müsbətdir, - bunun çox böyük təsiri olacaq, həm insanların sağlamlığı üçün, həm də bütövlükdə idmanın inkişafı üçün. Ona görə hesab edirəm ki, buna böyük ehtiyac vardır.

Azad edilmiş ərazilərdə keçən il bir neçə beynəlxalq idman yarışı keçirilmişdir. Bunun çox böyük tarixi əhəmiyyəti var. Çünki azad edilmiş ərazilər indi canlanır, həyat qayıdır, insanlar qayıdır. Bildiyiniz kimi, tarixi Zəfərimizdən dərhal sonra azad edilmiş torpaqlarda genişmiqyaslı quruculuq-bərpa işlərinə başlamışıq və o bölgələrdə beynəlxalq idman yarışlarının keçirilməsinin çox böyük rəmzi mənası var. Şuşada beynəlxalq şahmat yarışı, Suqovuşanda, Suqovuşan gölündə beynəlxalq avarçəkmə yarışı keçirilmişdir. Zəngilanın Ağalı kəndinin ətrafında triatlon üzrə yarış keçirilmişdir. Mən bunu çox yüksək qiymətləndirirəm və bu il də bu işlər davam etdirilməlidir.

Onu da bildirməliyəm ki, azad edilmiş şəhərlərin hər birində idman qurğularının yaradılması nəzərdə tutulur. Bütün şəhərlərin baş planları təsdiq edilib. Bütün bərpa-quruculuq işləri baş planlar əsasında aparılacaq və idman obyektlərinin yaradılması nəzərdə tutulur. Bildirməliyəm ki, Ağdamın məşhur "İmarət" stadionunun yeni layihəsi işlənilir. Stadion yenidən qurulacaq, eyni zamanda onun yanında böyük Olimpiya idman Kompleksi yaradılacaq. Bununla bərabər olaraq, keçən il Ağdamın Eyvazxanbəyli kəndində Qarabağ Atçılıq Kompleksinin təməli qoyuldu. Biz Qarabağ Atçılıq Kompleksini işğal dövründə Ağcabədi rayonunda yaratmışdıq, yenə də Qarabağ torpağında yaratmışdıq. Ancaq qərar qəbul olundu ki, bunun əzəli yerində - Eyvazxanbəyli kəndində çox gözəl, müasir atçılıq kompleksi yaradılsın. Artıq işlərə start verilmişdir.

Azad edilmiş bütün digər şəhərlərdə idman obyektlərinin yaradılması planlarımızdadır. Əlbəttə, biz ilk növbədə keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytarmalıyıq və bu istiqamətdə işlər gedir. İlk növbədə məktəblər, xəstəxanalar, infrastruktur yaradılmalıdır. Ancaq idman obyektləri də, əlbəttə ki, yaddan çıxmır və çıxmayacaq.

Bütün bunları qeyd edərək bir daha demək istəyirəm ki, Azərbaycan özünü dünyada güclü idman dövləti kimi təsdiqləyib və bütövlükdə ölkəmizin dünya arenasında mövqeyi ildən-ilə möhkəmlənir. Biz öz siyasətimizi ardıcıl şəkildə aparırıq. Azərbaycanda sabitlik, əmin-amanlıq, təhlükəsizlik hökm sürür, genişmiqyaslı quruculuq işləri aparılır. Tarixi Zəfərimiz hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçün, bütün dünya azərbaycanlıları üçün qürur mənbəyidir. Biz gələcək nəsli də vətənpərvərlik ruhunda tərbiyə edəcəyik, necə ki, bunu həmişə etmişik və elə gözəl gənc nəsil yetişdirmişik ki, həm idman arenalarında ölkəmizin bayrağını qaldırır, həm də döyüş meydanında. İkinci Qarabağ müharibəsində iştirak edənlərin mütləq əksəriyyəti gənclər idi - bizim siyasətimiz əsasında yetişən, həm cəmiyyətdə, həm də ailələrdə gözəl tərbiyə alan gənclər idi. Bu amil, əlbəttə ki, bütün sahələrdə özünü göstərir. Yəni artıq iki ildən çoxdur ki, xalqımız müzəffər xalq kimi yaşayır və bu qürurverici amil bizimlə bundan sonra əbədi olacaq. Sadəcə olaraq, bizim hər birimiz də öz sahəmizdə, öz fəaliyyətimizdə bu müqəddəs Zəfərə layiq olmalıyıq. Əminəm ki, indi idmançılarımız beynəlxalq yarışlarda iştirak edərkən onlar tamamilə başqa bir həvəslə, hətta başqa bir hərəkətlə çıxış edirlər və bizim müzəffər xalq olmağımızın həqiqətini bir daha təsdiqləyirlər.

Mən əldə edilmiş bütün uğurlar münasibətilə idmançıları, onların məşqçilərini, idman ictimaiyyətini bir daha təbrik etmək istəyirəm. Adətən, idman yekunları ilə bağlı görüşlərimiz ilin sonunda baş verirdi, lakin keçən ilin sonunda bir çox tədbirlər olduğu üçün belə imkan olmadı. Ancaq hesab etdim ki, biz bu ənənəni bərpa etməliyik. COVID dövründə belə imkan olmamışdır. Ancaq ənənələr Azərbaycan xalqının dünyagörüşünün ayrılmaz bir tərkib hissəsidir. Ona görə biz bu ənənəni bərpa etmişik.

Yeni uğurlar, yeni qələbələr, Azərbaycan dövləti hər zaman sizin yanınızda olacaq. Sizin uğurlarınıza bütün xalqımız sevinir, bütün uğurlar yüksək səviyyədə qiymətləndirilir və qiymətləndiriləcəkdir.

Bir daha sizə yeni qələbələr, yeni uğurlar arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Sonra Azərbaycanda idmanın inkişafında xidmətləri olan idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması mərasimi oldu.

Prezident İlham Əliyev 2022-ci ildə yüksək nailiyyətlər qazanmış bir qrup idmançıya və idman mütəxəssisinə - Dadaşbəyli Dadaş, Ruslan Lunyov, Əli İbrahimov, Tahir Baxşıyev, Tayfur Əliyev, İlham Məmmədov, Təbriz Həsənov, Ağahüseyn Mustafayev, Sənan Süleymanov, Taleh Məmmədov, Ramazan Muradov, Yaylagül Ramazanova, İrina Zaretska, Fəxrəddin Quliyev, Südeif Quliyev, Elvin Astanov, Ramil Mahmudov, Billurə Eminova, Rəhim Qasımov, Cavad Ağayev, Asif Həsənov və Şəfəq Kərimovaya yeni mənzillərin orderlərini təqdim etdi.

---

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21, № 2, maddə 176, № 6, maddə 999, № 7, maddə 1203; 2020, № 6, maddə 675, № 8, maddə 1017, № 11, maddələr 1323, 1335; 2021, № 12, maddə 1312; 2022, № 8, maddə 827) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 15.9.1-1-ci maddə əlavə edilsin:

"15.9.1-1. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin 1-ci hissəsinin tətbiq edilməsi məqsədləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma);".

2. 15.9.4-cü maddədə "məcburi icra orqanına" sözləri "icra məmurlarına" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2022-ci il*

---

## "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 645-VIQD nömrəli Qanununun tətbiqi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 645-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 15.9.1-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 15.9.1-1-ci maddəsində "orqan (qurum)" dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228; 2005, № 8, maddə 708, № 9, maddə 801, № 12, maddə 1103; 2006, № 12, maddə 1034; 2008, № 2, maddə 54; 2012, № 1, maddə 6; 2013, № 12, maddə 1529; 2014, № 2, maddə 103; 2016, № 3, maddə 465, № 9, maddə 1464, № 10, maddə 1637; 2017, № 5, maddə 846, № 9, maddə 1653, № 10, maddə 1803, № 12 (I kitab), maddə 2319; 2018, № 12 (I kitab), maddə 2614; 2019, № 2, maddə 211; 2020, № 8, maddə 1029, № 11, maddələr 1360, 1362; 2021, № 12, maddə 1400; 2022, № 8, maddə 840) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "13.3-1-ci" sözlərindən sonra ", 15.9.1-1-ci" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 2.9-2-ci bənd əlavə edilsin:

"2.9-2. həmin Qanunun 15.9.1-1-ci maddəsində "orqan (qurum)" dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 645-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 yanvar 2023-cü il*

---

## İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli 3037 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq sahibkarlıq subyektlərinə verilən 500,0 (beş yüz) milyon manat kredit portfeli 450,0 (dörd yüz əlli) milyon manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilir;

2.2. bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan dövlət zəmanəti Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu arasında bağlanılan, bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya Əlavə - "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi barədə Çərçivə Zəmanət Sazişi" əsasında verilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulan "Elektron kredit və zəmanət" informasiya sisteminin Əsasnaməsini altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, sahibkarlıq subyektlərinin dövlət zəmanəti verilmiş, lakin icra edilməmiş borc öhdəliyini Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun vəsaiti hesabına yerinə yetirsin;

4.2. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq faiz subsidiyasının verilməsi üçün tələb olunan vəsaitin 2023-cü ildə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsini təmin etsin, habelə həmin vəsaitin növbəti illərin dövlət büdcəsində nəzərdə tutulması məqsədilə tədbirlər görsün.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. "Elektron kredit və zəmanət" informasiya sisteminin yaradılmasını Azərbaycan Respublikasının 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın tələbləri nəzərə alınmaqla altı ay müddətində təmin etsin və həmin informasiya sisteminin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə zəruri tədbirlər görsün;

5.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün lazımi tədbirlər görsün.

6. Azərbaycan Biznesinin İnkişafı Fondu "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək, Azərbaycan Biznesinin İnkişafı Fondunun bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydadan irəli gələn səlahiyyətləri Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən həyata keçirilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2567; 2020, № 1, maddə 5; 2021, № 11, maddə 1211; 2022, № 5, maddə 447) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"na aşağıdakı məzmunda 1.2-3-cü bənd əlavə edilsin:

"1.2-3. Bu Qaydanın müddəaları işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin olunmasına şamil edilmir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 yanvar 2023-cü il*

*Fərmana edilmiş əlavələrlə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Türkiyənin Antalya şəhərinə səfər edib



Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Asiya Parlament Assambleyasının (APA) 13-cü Plenar Sessiyasında iştirak etmək üçün yanvarın 8-də Türkiyə Respublikasının Antalya şəhərinə işgüzar səfər edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətini Antalya Hava Limanında Türkiyə Böyük Millət Məclisinin (TBMM) Azərbaycanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Şamil Ayrım, ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Azərbaycanla Türkiyə arasında bütün sahələrdə geniş əlaqələr var






Asiya Parlament Assambleyasının (APA) 13-cü Plenar Sessiyasında iştirak etmək məqsədilə Türkiyə Respublikasının Antalya şəhərində işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova yanvarın 9-da Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlament rəhbərini səmimiyyətlə salamlayan Mustafa Şentop Asiya Parlament Assambleyasının 13-cü Plenar Sessiyası çərçivəsində müzakirə olunan mövzuların əhəmiyyəti barədə fikirlərini bölüşüb. O, TBMM-in APA-ya sədrliyi dövründə gördüyü işlər haqqında məlumat verib, bu platformanın parlamentlərarası əməkdaşlığa töhfələri haqqında fikirlərini ifadə edib.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə və tədbirin uğurlu təşkilinə görə TBMM Sədrinə təşəkkürünü bildirərək, qardaş ölkənin Asiya Parlament Assambleyasına son 5 ildəki rəhbərliyinin təşkilatın fəaliyyətinə mühüm töhfələr verdiyini qeyd edib. O, həmçinin tədbirdə müzakirə olunan məsələlərin müasir çağırışlara həsr olunduğunu, parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsinə fayda verdiyini söyləyib. Dost və qardaş ölkələr olan Azərbaycan və Türkiyənin bu cür əməkdaşlıq platformalarının imkanlarından uğurla istifadə etdiyini deyən Milli Məclisin Sədri qeyd edib ki, Asiya böyük bir regiondur və onun siyasi-iqtisadi potensialı böyükdür.

Görüşdə qeyd olunub ki, dövlət başçılarımızın şəxsi dostluq münasibətləri Azərbaycan və Türkiyə qardaşlığının, birliyinin və strateji müttəfiqliyinin bugünkü yüksək səviyyəyə çatmasında mühüm rol oynayır. Vurğulanıb ki, ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, parlamentlərimiz arasında da uğurlu və geniş əlaqələr mövcuddur. Qanunverici orqanlarımız həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edirlər. Bu mənada Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyətinin genişlənməsinə qardaş Türkiyənin dəstəyi ifadə olunub.

Görüşdə spiker Sahibə Qafarova Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı fikirlərini xatırladaraq, qeyd edib ki, Ermənistanda yaşayan azərbaycanlıların öz doğma torpaqlarından qovulması hələ münaqişə başlamazdan öncə başlayıb. Tarixi xəritələr və sənədlər müasir Ermənistanın tarixi Azərbaycan torpaqlarında yaradıldığını və azərbaycanlıların bu torpaqlarda əsrlər boyu yaşadığını sübuta yetirir. Sahibə Qafarova tarixi şəhərimiz olan İrəvanın 1918-ci ildə Ermənistanın paytaxtı elan edilməsi, 1920-ci ildə isə sovet hökumətinin qərarı ilə Zəngəzurun Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilməsi, bunun da Azərbaycanın öz Naxçıvan regionu və Türkiyə ilə coğrafi əlaqəsinin kəsilməsinə gətirib çıxardığını, bu ərazilərdə yaşayan azərbaycanlıların XX əsrdə bir neçə dəfə deportasiyaya məruz qaldığını, deportasiyaların son mərhələsinin 1988-1991-ci illərdə baş verdiyini diqqətə çatdırıb. Milli Məclisin Sədri qərbi azərbaycanlıların hüquqlarının da bərpa olunacağına və onların öz doğma torpaqlarına geri qayıdacaqlarına olan qəti inamını ifadə edib.

Spiker Sahibə Qafarova ekologiya fəallarının Laçın-Xankəndi yolunda keçirdiyi etiraz aksiyası, Ermənistanın Azərbaycan ərazilərində həyata keçirdiyi ekoloji terror, Ermənistanın Laçın yolundan hərbi məqsədlər üçün istifadə etməsi, minalar basdırması və digər məsələlər barədə də geniş məlumat verib.

TBMM-in Sədri Mustafa Şentop deyib ki, Türkiyə hər zaman Azərbaycanın haqq işinə dəstək verir, Ermənistanın təxribatçı davranışları regionda sülh və təhlükəsizliyi təhdid edir. Azərbaycan Ermənistanın 30 illik işğalına son qoyaraq, ədaləti bərpa etdi və öz haqqını aldı. Ermənistan öz öhdəliklərini yerinə yetirməlidir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 13-cü Plenar Sessiyasında çıxış edib








**Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova Türkiyə Respublikasının Antalya şəhərində işgüzar səfərdədir. Azərbaycan parlamentinin sədri səfər çərçivəsində Asiya Parlament Assambleyasının "Dəyişən qlobal dinamiklərdə çoxtərəfliliyin təşviqi" mövzusunda keçirilən 13-cü Plenar Sessiyasında çıxış edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sessiya iştirakçılarını salamlayan Milli Məclisin spikeri Türkiyə Böyük Millət Məclisinin Asiya Parlament Assambleyasına son 5 ildəki rəhbərliyini qardaş Türkiyənin çoxtərəfliliyə, həmrəyliyə və parlamentlərarası əməkdaşlığa sadiqliyinin açıq ifadəsi kimi yüksək qiymətləndirib.

Müasir dünyamızın həllinin mürəkkəb çağırışlarla üzləşdiyini deyən spiker insan həyatının bütün sahələrinə təsir göstərən yoxsulluq, humanitar böhranlar, siyasi və sosial gərginlik, iqtisadi bərabərsizlik və iqlim dəyişikliyi kimi problemlərin COVID-19 pandemiyası dövründə daha da kəskinləşdiyini qeyd edib. Dünya birliyinin bu problemlərlə bağlı qəbul etdiyi yanaşmaları son iki ilin əsas nəticələri kimi dəyərləndirən sədr vurğulayıb ki, vaksin millətçiliyi, ədalətsiz iqtisadi üstünlüklərin əldə olunması kimi tendensiyalar bəzi böyük ölkələr tərəfindən tətbiq edilmiş birtərəfli addımların səmərəsizliyini nümayiş etdirib.

Sahibə Qafarova bildirib ki, postpandemiya dövrü və onun sərt reallıqları kontekstində dialoq, həmrəylik və birlik əvvəlkindən də daha böyük əhəmiyyət daşıyır. Keçmiş təcrübələr bizə çoxtərəfliliyə alternativin olmadığını göstərdi. Bugünkü çağırışlara cavab vermək üçün çoxtərəfliliyin ciddi şəkildə təkmilləşdirilməsinə ehtiyac var, lakin biz yalnız səylərimizi birləşdirərək və beynəlxalq əməkdaşlığa sadiq qalaraq mürəkkəb problemlərin həlli yollarını tapa bilərik. Sədr məhz bu məqamda parlament diplomatiyasının öz potensialını tam ortaya qoymaq imkanı əldə etdiyini, son illərdə öz əhəmiyyətini nümayiş etdirən beynəlxalq parlament platformalarının kollektiv səyləri və birgə fəaliyyətləri dəstəkləyərək çoxtərəfliliyin vacib elementinə çevrildiyini diqqətə çatdırıb.

Milli Məclisin Sədri qeyd edib ki, parlament əməkdaşlıq platformaları xalqın nümayəndələri olan millət vəkillərinin bəşəriyyəti narahat edən problemlərin həlli yollarını tapmaq məsuliyyətinin və daha yaxşı dünya naminə birlikdə işləmək əzminin təzahürüdür.

Bu mənada Asiya Parlament Assambleyasının oynadığı rola toxunan Sahibə Qafarova bu təsisatın Asiya parlamentləri arasında yaratdığı dialoq zəmini, yaxın əməkdaşlıq imkanları barədə danışıb. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin sədri kimi bildirib ki, Parlament Şəbəkəsi də eyni baxışı və prinsipləri bölüşür, ümumi məqsədlərə çatmaq üçün Asiya Parlament Assambleyası ilə əməkdaşlıq etməyə hazırdır.

Bugünkü çoxtərəfli sistemin bütün ölkələrə fayda gətirəcək ciddi təkmilləşdirmələrə ehtiyacı olduğunu bir daha qeyd edən Sahibə Qafarova beynəlxalq hüququn norma və prinsiplərinə ciddi riayət olunmasının, beynəlxalq təşkilatların ikili standartlardan çəkinməsinin əhəmiyyətini vurğulayıb. Bu, müasir beynəlxalq münasibətlər sisteminin tələbidir, lakin eyni zamanda ədalət və səmimiyyətin bərqərar olması üçün də zəruridir.

Çıxışında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin 30 ilə yaxın Ermənistanın işğalı altında qalmasından söz açan spiker bildirib ki, işğal illərində Ermənistan bütün şəhər və kəndlərimizi dağıdıb, Azərbaycanın bütün tarixi, mədəni və dini abidələrini vandalizmə məruz qoyub. Ermənistan bu ərazilərdə etnik təmizləmə həyata keçirib. Həm mülki, həm də hərbçi olan 4 minə yaxın Azərbaycan vətəndaşı Birinci Qarabağ müharibəsi ilə əlaqədar itkin düşüb. Etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı işğal olunmuş ərazilərdən məcburi köçkün və Ermənistandan qaçqın vəziyyətinə düşüb.

Milli Məclisin Sədri bu məqamda bir sıra tarixi faktlara toxunub. O, Ermənistanda yaşayan azərbaycanlıların öz doğma torpaqlarından hətta münaqişə başlamazdan öncə qovulduğunu deyərək, tarixi xəritələrin və sənədlərin də müasir Ermənistanın tarixi Azərbaycan torpaqlarında yaradıldığını və azərbaycanlıların bu torpaqlarda əsrlər boyu yaşadığını sübut etdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Spiker bildirib ki, tarixi şəhərimiz İrəvan 1918-ci ildə Ermənistanın paytaxtı elan edilib. 1920-ci ildə isə sovet hökumətinin qərarı ilə Zəngəzur Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilib. Bu da Azərbaycanın öz Naxçıvan regionu və Türkiyə ilə coğrafi əlaqəsinin kəsilməsinə gətirib çıxarıb.

Bu ərazilərdə yaşayan azərbaycanlıların XX əsrdə bir neçə dəfə deportasiyaya məruz qaldığını qeyd edən spiker deportasiyaların son mərhələsinin 1988-1991-ci illərdə baş verdiyini deyib. Qarabağda olduğu kimi, erməni tərəfi Qərbi Azərbaycanda da tarixi irsimizi məhv etmək məqsədi ilə ardıcıl olaraq bütün tarixi və dini abidələrimizi dağıdıb, Azərbaycan mənşəli şəhər və kəndlərin adlarını dəyişdirib.

Ermənistanın Azərbaycan torpaqlarını işğalı mövzusunu davam etdirən sədr xatırladıb ki, bütün bu illər ərzində Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışıb. Lakin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə, digər beynəlxalq təşkilatların qərar və qətnamələri yerinə yetirilmədi. Bilirik ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri bəzən bir neçə saat və gün ərzində icra edilir. Azərbaycana gəldikdə isə, onlar 27 il ərzində yerinə yetirilməmiş qaldı. Spiker təəssüflə bildirib ki, beynəlxalq təşkilatlar təcavüzkar dövlətə qarşı heç bir sanksiya da tətbiq etmədilər.

Sədr bildirib ki, Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququndan istifadə etməklə və üç minə yaxın şəhidin həyatı bahasına BMT Təhlükəsizlik Şurasının qətnamələrini, beynəlxalq hüququn norma və prinsiplərini yerinə yetirərək, öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib. 2020-ci ilin noyabrında İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycan Böyük qayıdış proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlayıb. Artıq keçmiş məcburi köçkünlərimizin doğma yurdlarına qayıtması prosesi başlayıb. Parlamentin rəhbəri qərbi azərbaycanlıların hüquqlarının da bərpa olunacağına və onların öz doğma torpaqlarına geri qayıdacaqlarına olan qəti inamını tədbir iştirakçıları ilə bölüşüb.

Sədr diqqətə çatdırıb ki, işğalın qurbanı olmasına baxmayaraq, məhz Azərbaycan regionda uzunmüddətli sülhün və sabitliyin təmin edilməsi üçün səy göstərir və Ermənistana münasibətləri normallaşdırmağı və beynəlxalq hüququn 5 prinsipi əsasında sülh sazişi imzalamağı təklif edib. Lakin Ermənistan münaqişəyə son qoyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı kobud şəkildə pozur. O, hələ də öz silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarmayıb və Laçın yolundan hərbi məqsədlər - minaların basdırılması və Azərbaycanın talan edilən təbii sərvətlərinin daşınması üçün istifadə edir. İşğal illərində Ermənistan bu ərazilərdə 1 milyondan çox mina basdırıb və bu işi hələ də davam etdirməkdədir. İkinci Qarabağ müharibəsi başa çatandan bəri minaların partlaması nəticəsində 280 nəfərə yaxın azərbaycanlı öldürülmüş və ya ağır yaralanmışdır. Danışıqlarda destruktiv mövqe nümayiş etdirən Ermənistan götürdüyü öhdəliklərə baxmayaraq, kommunikasiya və nəqliyyat marşrutlarının açılması prosesini də pozur. Sədr bildirib ki, Asiyanı Avropa ilə birləşdirən Orta dəhliz boyunca yeni nəqliyyat marşrutu olacaq. Zəngəzur dəhlizinin açılması regionda və onun hüdudlarından kənarda nəqliyyat və ticarət sahəsində əməkdaşlığı xeyli dərəcədə genişləndirəcək.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova İran İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqer Qalibaf ilə görüşüb

Asiya Parlament Assambleyasının (APA) 13-cü Plenar Sessiyasında iştirak etmək məqsədilə Türkiyə Respublikasının Antalya şəhərində işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova yanvarın 9-da İran İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqer Qalibaf ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ikitərəfli gündəliyin aktual məsələləri, postmünaqişə dövründə regionda mövcud olan vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Spiker Sahibə Qafarova Azərbaycanın regionda sülh və təhlükəsizliyin təmin olunması və əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində təşəbbüsləri haqqında məlumat verib. Görüşdə həmçinin parlamentlərarası əlaqələrin mövcud vəziyyəti haqqında da müzakirələr aparılıb.

*"Azərbaycan"*



# Heydər Əliyev İli 2023

# Böyük ömrün səhifələri

**İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur.**

**Heydər ƏLİYEV**

**Böyük şəxsiyyətlər böyük, mənalı ömür yaşayırlar!**

**Ömrün böyüklüyü görülən işlərin miqyası, nəhəngliyi ilə ölçülür.**

**Ömrün mənasını isə insanlara, bütövlükdə xalqa fayda, rahatlıq, xoş güzəran bəxş edən əməllər təşkil edir.**

*Bəşər tarixində əldə qılınc at belində, top-tüfənglə, tank-təyyarə ilə müharibələr apararaq qalib gələnlər çox olub.*

*Dünyaya ölkələr fəth edən, imperiya quran çoxlu sərkərdələr də gəlib gedib.*

*Ancaq bu fateh və sərkərdələrin bir qismi böyük dövlətlər yaratsalar da, xeyirxah və mərhəmətli insanlar kimi tanınmayıblar.*

Bəlkə də əksinə...

**Ulu Öndər Heydər Əliyev dünyada görkəmli şəxsiyyət və siyasi xadim kimi qəbul olunub, ölkəmizdə isə qurucu rəhbər, mərd və xeyirxah insan, müasir Azərbaycan dövlətinin banisi və yaradıcısı kimi ürəklərdə yaşayır və daim yaşayacaqdır.**

*Dövlət başçısı cənab İlham Əliyev tərəfindən "Heydər Əliyev İli" elan olunan 2023-cü ildə biz sevimli rəhbərimizi daim xatırlayacaq, onun dövlətimiz, xalqımız naminə gördüyü işləri bir daha minnətdarlıqla yada salacağıq.*

❖ ❖ ❖

**Heydər Əliyev xarizmatik şəxsiyyət idi!**

**Onun fitri istedadı, nadir işgüzarlıq qabiliyyəti, yüksək təşkilatçılıq bacarığı, qeyri-adi yaddaşı, parlaq və sinədəftər nitq söyləmək məharəti vardı.**

Bütün bunların sayəsində Ulu Öndər hələ yeniyetməlik və gənclik dövründən başqalarından fərqlənmiş, sadə və zəhmətkeş ailədən çıxsa da, ən yüksək vəzifəyə çatmış, - superdövlət sayılan SSRİ-nin rəhbərlərindən birinə çevrilmişdi.

Moskvada, Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi çalışdıqda da fərqlənmiş, dünyada tanınıb məşhurlaşmışdır.

Həyatı, böyük ömrü müxtəlif çətinliklər və təlatümlərlə dolu olmuşdur.

**Heydər Əliyev vəzifə olimpinin ən yüksək zirvəsinə çatan, sonra hər şeydən ədalətsizcəsinə məhrum edilən, bir kənara çəkilən, amma yenidən Günəş kimi parlayaraq Vətəninə və xalqına sonsuz faydalar gətirən nadir şəxsiyyətlərdəndir!**

**Dünyada belə görkəmli simalar barmaqla sayılacaq qədər az olub!**

*Fəxr edirik ki, Azərbaycan xalqının böyük oğlu da xalqının ən çətin, ən sınaqlı və ən ağır günlərində daim onunla birgə olub, dövləti və milləti təhlükələrdən qoruyub, onun müstəqillik arzusunu əbədiliyə və dönməzliyə çevirib.*

❖ ❖ ❖

Ulu Öndər Heydər Əliyev iki dəfə Azərbaycana rəhbərlik edib: sovet dövründə və müstəqillik illərində!

Hər iki dövr bir-birindən kəskin şəkildə fərqlənir!

Təkcə ayrı-ayrı ictimai-siyasi formasiya olmaları baxımından deyil, həm də həmin dövrdə Azərbaycanda baş verən qeyri-adi hadisələr, inkişaf və təlatümlər, dövlətin və xalqın taleyi sarıdan da!

**Dövr və zaman, hədəf və məqsədlər müxtəlif olsa da, Ulu Öndərimizin məramı bir olub: xalqa sədaqətlə xidmət, dövləti qorumaq və inkişaf etdirmək, insanları rifaha və xoş günlərə çatdırmaq!**

❖ ❖ ❖

Ulu Öndər Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbər seçiləndə ölkə geridə qalmış, aqrar respublika idi.

Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gələnədək uzun bir həyat yolu keçmişdi.

Maraqlı və diqqətçəkən məqamlardan biri də odur ki, Ulu Öndər Heydər Əliyev çalışdığı bütün vəzifələrdə müəyyən "korrektələr" aparmışdır. Yenilik və dəyişikliklər isə mahiyyətcə xalqın mənafe və maraqlarına xidmət etmişdir.

Dövlət Təhlükəsizliyi Komitəsi - təkcə bu ad adamların canına üşütmə salır, boğazlarını qurudurdu.

Bu ad həmişə repressiya, sürgün, həbsxana və digər cəzalandırma növlərinin sinoniminə çevrilmişdir.

Sovet hakimiyyəti yarandığı ilk gündən "proletariatın diktaturası" olduğunu elan etmiş, insan taleyini uşaq oyuncağına çevirmiş, kütləvi repressiya, terror və güllələnmə cəzasından gen-bol istifadə etmişdi.

Belə cəzaların icraçısı isə birbaşa bu qurumun adı ilə bağlı idi!




Ulu Öndər Heydər Əliyev gənc yaşlarından bu "qorxulu qurum"da çalışmışdı.

Bir məqama da diqqət çəkirik ki, adətən, Dövlət Təhlükəsizlik Komitələrində yüksək posta qeyri-millətin nümayəndələri təyin edilmirdi.

*Ulu Öndər Heydər Əliyev isə bəsirət və bacarığı sayəsində bu sahədə general rütbəsinə, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin rəhbəri vəzifəsinə yüksəlmişdi.*

**Həmin dövrdə kütləvi həbslərə və sürgünlərə son qoyulsa da, "dissident" ovu davam edirdi.**

Mövcud quruluşdan narazı olanlar, başqa cür düşünənlər müxtəlif bəhanələrlə həbsxanalara atılır, cəmiyyətdən təcrid olunurdular.

**Ulu Öndərin Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərliyi dövründə bir nəfər belə dissident damğası ilə həbsxanaya atılmadı!**

**Halbuki gənclər arasında kifayət qədər başqa cür düşünən və bunu müxtəlif formada ifadə edənlər az deyildi!**

❖ ❖ ❖

Heydər Əliyev ölkəyə rəhbərliyi dövründə də xalqına və millətinə daim fayda verməyi bacardı.

SSRİ-də bütün imkanlar mərkəzin - Kremlin maraqlarının təmininə xidmət edirdi.

Dövlətin - 14 müttəfiq respublikanın bütün qazancı mərkəzdə yerləşən "ittifaq büdcəsi"nə toplanır, sonra oradan respublikalara "pay" ayrılırdı.

"Pay" ayırmalarının da xüsusi qayda və prinsipləri vardı.

*Ulu Öndər Heydər Əliyev sovet quruluşunun incəliklərini dərindən bildiyindən ondan Azərbaycanın və Azərbaycan xalqının necə bəhrələnməsini də təmin edirdi.*

**Ümummilli Lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə gördüyü nəhəng işlərin bir qismini qısa şəkildə xatırlayaq:**

- Dövlət planlarının yerinə yetirilməsini təmin edərək daim ittifaq büdcəsindən ölkəyə nəzərdə tutulan, bəzən daha artıq vəsaitin ayrılmasına nail olurdu;
- Neft sənayesindəki gerilik aradan qaldırıldı və yeni inkişaf dövrünə qədəm qoyuldu;
- Kənd təsərrüfatının sürətli inkişaf dövrü başladı;
- Azərbaycan kəndinin siması əsaslı şəkildə dəyişdi, kənddə həyat səviyyəsi və rifah halı xeyli yüksəldi;
- Bakıda çoxsaylı yaşayış binaları tikildi, yeni mikrorayonlar salındı;
- Yeni ali təhsil ocaqları yaradıldı, mədəniyyət obyektləri, kitabxanalar, muzeylər tikildi;
- Nadir ixtisaslar üzrə SSRİ-nin digər şəhərlərindəki ali məktəblərdə dövlət hesabına mütəxəssis hazırlığı həyata keçirildi.
- Zabit kadrlarının hazırlanması işinə başlandı;
- Yüzlərlə insan orden və medallar, fəxri adlar, dövlət mükafatları ilə təltif edildi və s.

❖ ❖ ❖

Azərbaycanın dövlət müstəqilliyi çox çətin və ağır dövrə düşdü!

*Vəziyyəti gərginləşdirən səbəblərdən biri də xalqın öz sınanmış oğlundan ayrı düşməsi, maymaq, qorxaq, naşı və səriştəsiz rəhbərlərin əlində qalması idi.*

**Dünyanın işinə bax ki, respublikanın ozamankı rəhbərləri Heydər Əliyevə öz əli ilə tikib qurduğu Bakıda yaşamağa belə imkan və şərait yaratmadılar.**

*Lakin Azərbaycan fəlakət həddinə çatanda, xalq dövlətin və müstəqilliyin xilası üçün öz rəhbərinə müraciət edəndə Ulu Öndər Heydər Əliyev bu çağırışa biganə qalmadı!*

**Heydər Əliyev Azərbaycana ikinci rəhbərliyi dövründə də tarixə yazılacaq bir çox uğur və nailiyyətlərə imza atdı:**

- Azərbaycanı kiçik xanlıqlara parçalanmaqdan, müstəqilliyini itirməkdən, xaos və anarxiyadan xilas etdi;
- Müstəqilliyimizi əbədiliyə çevirdi;
- "Əsrin müqaviləsi" neft kontraktını imzalamaqla Xəzər neftini dünya üçün yenidən kəşf etdi;
- Bakı-Tibilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişini reallaşdırmaqla Azərbaycan neftinin qeyri-ənənəvi marşrutla dünya bazarına çıxarılmasına nail oldu;
- Bakı-Tbilisi-Ərzurum qaz ixracı boru kəmərinin çəkilişinə start verilməsi, əslində, Azərbaycanın Avropaya qaz ixracının başlanmasının əsasına çevrildi;
- Azərbaycan Avropa Şurasına üzvlüyə qəbul olundu;
- Ordu quruculuğu prosesinə başlanıldı;
- Yeni Konstitusiya hazırlanaraq qəbul edildi;
- Sərbəst bazar iqtisadiyyatına keçidi şərtləndirən əsaslı islahatlar aparıldı və s.

**Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə gördüyü nəhəng işlər arasında iki mühüm məqamı xüsusi qeyd etmək istəyirik:**

- Azərbaycanın sürətli, davamlı və sabit inkişafını təmin edən doğru istiqamətin - Heydər Əliyev siyasi kursunun müəyyən edilməsi;
- Ulu Öndərin siyasi varisinin yetişdirilərək xalqın və dövlətin gələcək taleyinin etibarlı əllərə tapşırılması!

❖ ❖ ❖

*Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində saysız-hesabsız işlər görülmüş, fabrik və zavodlar, yeni müəssisələr tikilib istifadəyə verilmiş, kəndlər, şəhərlər yenidən qurulub abadlaşdırılmış, yüz minlərlə gənc təhsil alıb əmək fəaliyyətinə başlamış, insanların həyatı əsaslı şəkildə yaxşılaşmış, vəzifə pillələri ilə irəliləmiş, özlərinə xoş güzəran qurmuşlar.*

**Heydər Əliyevin bilavasitə rəhbərliyi altında işləyənlər, onunla haçansa təmas quranlar, səxavət və comərdliyindən bəhrələnənlər böyük rəhbəri heç zaman unutmamış, onun xeyirxahlıqlarını və gördüyü işləri daim minnətdarlıqla xatırlamışlar.**

*Bütövlükdə Heydər Əliyevin ictimai-siyasi və dövlət rəhbərliyi ilə bağlı çoxsaylı məqalələr, əsərlər yazılmış, cild-cild kitablar buraxılmışdır.*

Yeni Azərbaycan Partiyası uzun illər boyu yazılan məqalələrin toplanaraq ayrı-ayrı kitablara çevrilməsi sahəsində səmərəli işlər görmüşdür.

Heydər Əliyev Fondu da bu məsələyə xüsusi diqqət və qayğı ilə yanaşmışdır.

**Heydər Əliyevin bir insan kimi fəaliyyəti, böyük ürək sahibi və qayğıkeş rəhbərliyi, ayrı-ayrı insanlara xüsusi mərhəməti, çətinliyə düşənlərə daim əl uzatması ilə bağlı saysız-hesabsız faktlar da mövcuddur.**

Bu tip xatirələrin toplanması, qələmə alınması və kitablara çevrilməsi missiyasına "Azərbaycan" qəzeti xüsusi həssaslıqla yanaşmışdır.

Qəzetimizdə **"HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA"** adlı xüsusi rubrika açılmış, müxtəlif insanların müxtəlif dövrdə Ulu Öndərlə bağlı xatirələri sistemli şəkildə dərc edilmişdir.

Çox keçmədən **"HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA"** adlı ilk kitab (Bakı, "Təhsil" nəşriyyatı, 2005, 372 səh.) işıq üzü görmüşdür.

Kitab böyük maraqla qarşılanmış, cəmiyyətdə güclü əks-səda doğurmuşdur.

Ayrı-ayrı insanlar redaksiyaya gəlir, məktublar vasitəsilə Ulu Öndər haqqında ən qiymətli və əziz xatirələrini bölüşür, həyatlarında xüsusi rolu olmuş bu böyük şəxsiyyət barəsində ürək sözlərini və minnətdarlıq duyğularını oxucularımıza çatdırmaq istəklərini söyləyirdilər.

**Uzun illər davam edən bu rubrikada gedən materialların məzmunu və dəyəri, Ulu Öndərin bir insan kimi əzəmətini göstərən real faktların insanlar tərəfindən məhəbbətlə anılması "HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA" adlı daha bir ikicildliyin (Bakı, 2013, 396 səh. və Bakı, 2013, 184 səh.) yaranması ilə nəticələndi.**

❖ ❖ ❖

*Bu il Azərbaycanda və dünyanın bir sıra ölkələrində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi təntənə ilə qeyd ediləcəkdir.*

*Dövlət başçısı cənab İlham Əliyev bu münasibətlə xüsusi tədbirlər planı imzalamışdır.*

**Qələm əhli olaraq biz də Ulu Öndərimiz haqqında xatirələrin oxuculara çatdırılmasını özümüzə mənəvi borc sayırıq.**

*Heydər Əliyevlə görüşmüş, rəhbər səxavətindən bəhrələnmiş və bu barədə işıqlı xatirələrini yazmış insanların bir çoxu artıq əbədiyyətə qovuşmuşdur.*

*Faktlar və hadisələr isə daim tarixdə yaşayır.*

"Azərbaycan" qəzeti yubiley ilində yenidən **"HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA"** rubrikasını davam etdirərək ayrı-ayrı insanların müxtəlif dövrlərdə söylədiklərini yeni nəsillərə də çatdırmaq məramındadır.

Beləliklə, oxucu marağını nəzərə alaraq **"HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA"** kitablarında çap olunmuş bəzi xatirələri yenidən dərc edirik. Bu silsilədə ilk məqalə olaraq Ulu Öndər Heydər Əliyevin 87 il öncə Naxçıvan Pedaqoji Texnikumunda birgə təhsil aldıqları Zərqələm Əliyevanın xatirələrini çap edirik.

**Ən böyük istəyimiz isə bu xatirələrin ingilis, rus, ərəb dillərinə tərcümə olunaraq yenidən kitab halında nəşr edilməsidir.**

**Bəxtiyar SADIQOV**



# Heydər Əliyev İli 2023




"Azərbaycan" qəzetinin 2013-cü ildə nəşr etdiyi "HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA" ikicildlik kitabından səhifələr

# Məni 13 yaşlı Heydərə tapşırdılar

*"...30-cu illərin ortalarında Naxçıvan kəndlərində qızların təhsil almasına hələ də imkan yaratmırdılar. Bizim Şahbuz rayonunun Nurs kəndində də hesab edirdilər ki, qız uşağı üçün natamam orta təhsil kifayətdir. Lakin mən oxumaq istəyirdim. Bu arzumu duyan dayım valideynlərimlə uzun müzakirələrdən sonra təhsilimi Naxçıvan Pedaqoji Texnikumunda davam etdirməyə onları razı sala bildi. Beləliklə, 1936-cı ilin yayında sənədlərimi texnikuma vermək üçün dayımla birlikdə Naxçıvan şəhərinə gəldik. Texnikumun qarşısında adam əlindən tərpənmək mümkün deyildi. Növbəyə dayandıqda dayım ortayaşlı bir gənclə həmsöhbət oldu. Adının Həsən olduğunu deyən bu adam Bakıda yaşadığını, indi kiçik qardaşının imtahanı üçün bura gəldiyini dedi və kənarda dayanmış, elə mənlə həmyaşıd olan bir yeniyetməni göstərdi. Bu vaxt imtahan başladı.*

*İmtahan zamanı həmin yeniyetmə mənlə yanaşı əyləşmişdi və tez-tez "kömək lazımdırmı" - deyə soruşurdu. Mən isə hər dəfə "ehtiyac yoxdur" - cavabını verirdim. İmtahan hər ikimiz üçün müvəffəqiyyətlə bitdi. Çölə çıxanda ikimizi də dayım və onun qardaşı təbrik etdi. Sonra aramızda qısa söhbət oldu.*

*Dayım bu yeniyetməyə müraciətlə dedi: "Sənin qardaşın Həsənlə biz dost olduq, indi sən də gərək şəhərdə bu qıza göz-qulaq olasan, onu özünə bacı sayasan, Zərqələmi sənə tapşırıram, sənə arxayın oluram. Hə, axı sənin adın nə oldu?"*

*O, şəstlə cavab verdi: "Dayı, arxayın ol, qızınla heç kimin işi ola bilməz, adım isə Heydərdir..."*



**1939-cu il, Naxçıvan Pedaqoji Texnikumunun buraxılış qrupu**

Müəllim adının şərəfi barədə çox danışılsa da, bu peşənin spesefik çətinlikləri, problemləri bəzən diqqətdən kənar qalır. Müəllim əziyyəti, missiyası isə yalnız tədris prosesi ilə kifayətlənmir. Bu, həm də gənc nəslə həsr edilən minlərlə, on minlərlə məşəqqətli tale yolunda, ömrün dolanbaclarında davam edir. Bu taleyi müharibə illərində, əzablı 50-70-ci illərdə yaşayanların, xüsusən də kənd məktəblərində çalışan müəllimlərin zəhməti isə həqiqətən də ölçüyəgəlməzdir.

Belə zəhmətkeş insanlardandır Zərqələm Əliyeva. Onun mütəxəssis, peşəkar kadr kimi yetişdirdiyi insanların sayı minlərlədir. Onun zəhmətinin nəticələri bu gün ölkəmizin inkişafına töhfə verən onlarla şəxsin vətənkeşlik duyğularına hopub. Zərqələm xanım 40-cı ilin iztirablı müharibə dövrünü də, Naxçıvanın 90-cı illərin ağır blokada şəraitini də eyni əzmlə, fədakarlıqla yaşayıb. 1924-cü ildə dünyaya göz açan bu xanım yaşının artıq 80-i adlamasına baxmayaraq, hələ də fəallığından qalmır, "qocalığa yaxa verməməm" deyir. Səhhətində ara-sıra problemlər baş qaldıranda isə "yəqin ürəyim vəfasız çıxmayacaq" təsəllisi ilə təskinlik tapır. Mənalı həyat sürən Zərqələm Əliyevanın tale yollarında maraqlı hadisələr, qələmə alınası olaylar yetərincədir. Ancaq bu xanım daha çox 1936-cı ildə bünövrəsi qoyulan xatirələrini yada salmağa xüsusi meyil edir. Həmin il Naxçıvan Pedaqoji Texnikumuna qəbul olunması onun həyatında böyük dönüş yaratdığı kimi, bu təhsil ocağında əldə etdiyi dostluq, yoldaşlıq da daim Zərqələm xanımın qürur, iftixar mənbəyi olmuşdur. Niyə də olmasın?! Axı onun dostluğa başladığı 13 yaşlı yeniyetmə sonradan dünyanın diqqətini və ehtiramını zəkası, qüdrəti ilə fəth edəcək bir şəxs - HEYDƏR ƏLİYEV idi...

❖ ❖ ❖

" ...1936-cı ilin sentyabr ayının 1-də ilk dərsə gəldik. Elə birinci dərs başlamamış Heydər bir qədər utanaraq mənə yaxınlaşdı: "Sənin adın Zərqələmdir də... Yəqin unutmamısan, dayın səni mənə tapşırıb, evdə də qardaşım Həsən mənə deyib ki, o qıza göz-qulaq olarsan. Qardaşım anama da deyib ki, sən şəhərdə qəribsən. Anam da mənə tapşırıb ki, səni evə gətirim, onunla tanış edim. Axı dayına söz vermişik, sənə gərək ailəliklə göz-qulaq olaq"...

Bu sözləri Heydər gülümsünərək söylədi. Onun səsindəki səmimiyyət məndə arxayınçılıq yaratsa da, yaman utandım, axı cəmi 12 yaşım vardı, özü də kənddən təzə gəlmiş bir qız idim. Təşəkkür edərək onun anasına salam göndərdim. Beləliklə, bizim çox möhkəm dostluğumuzun əsası qoyuldu.

Texnikum o zaman indiki Bəhruz Kəngərli muzeyinin binasında yerləşirdi. Qızlara məktəbin həyətindəki yataqxanada yer vermişdilər. Həmin gün dərsdən sonra Heydər bizim yataqxanaya gələrək, şəraitimizlə maraqlandı. Söhbət zamanı gördüm ki, Heydər nə isə sözlü adama oxşayır, nə isə demək istəyir, ancaq çəkinir. Onun nə deyəcəyi



mənim üçün də çox maraqlı olduğundan axırda dözə bilməyib, "ay Heydər, sözlü adama oxşayırsan, deyəsən sözün var", - dedim.

Gülümsünərək, "bilirsən, ay Zərqələm, kənddən şəhərə gələn qızlara dəb düşüb ki, hörüklərini kəssinlər. Sənin də çox qəşəng, uzun hörüklərin var, hayıfdı kəsməssən". Əslində, bu xəbərdarlığı mənə şəhərə gəlməmişdən əvvəl valideynlərim etmişdilər və tapşırmışdılar ki, hörüyümə əl vursam, təhsilimi yarımçıq saxlamalı olacağam. Ancaq zarafatcıl oğlan olan Heydərlə mən də zarafat etmək fikrinə düşdüm: "Yox, ay Heydər, hörüyümü kəsmək istəyirəm".

Bu zaman Heydər səsinə kəskin ton verərək, "unutma ha, dayın səni mənə, bizim ailəyə tapşırıb, saçını kəsməmişdən əvvəl icazə almaq lazımdır, ancaq əvvəlcədən deyirəm ki, mən icazə verməyəcəm", - söylədi. Gülə-gülə, "yaxşı, arxayın ol, hörüyə əl vurmayacağam", - dedim. Belə adam idi Heydər...

Hər ikimiz əlaçı idik. Ancaq onun dünyagörüşü, dərsləri mənimsəmək fərasəti, bacarığı qeyri-adi idi. Təsadüfi deyildi ki, onu tələbə komitəsinə sədr seçmişdik. O, təkcə mənimlə yox, hər kəslə mehriban və səmimi idi. Çalışırdı ki, hər birimizə kömək etsin. Başqasına kömək etməyi, əlindən tutmağı özünün ən böyük xeyirxahlığı sayırdı. Zarafatcıl idi. Məni həmişə "Qələmzər" çağırırdı. İlk gündən müəllimlərin də, tələbələrin də diqqətini heç kəsdə olmayan istedadı ilə özünə çəkmişdi. Hamı onun zəkasına, istedadına heyran qalırdı.

Bizim hərbi rəhbərimiz Akim Abbasov (sonralar general-mayor oldu) idi. O, uşaqları sıraya düzməyi, onlara komanda verməyi həmişə Heydərə tapşırırdı. Heydər hətta bəzən dərslərdə onu əvəz də edirdi. Qabiliyyətindən, nizam-intizamından çox xoşu gəlirdi. Deyirdi ki, Heydər gələcəyin ən böyük hərbçisi, generalı, marşalı olacaq. Lətif Hüseynzadə isə deyirdi ki, "Heydər, sən gələcəyin dahi şəxsiyyətlərindən olacaqsan, hamı səninlə fəxr edəcək". Yəni Heydər Əliyevin böyüklüyü, qeyri-adiliyi elə o vaxt da hamının diqqətini çəkirdi. Yaşından çox müdrik görünürdü, uzaqgörən, yolgöstərən idi.

Heydərdə bənzərsiz rəhbərlik, liderlik xüsusiyyəti vardı. Adi fakt deyim, dərsdən sonra həyətdə oyun oynayanda hamımız deyirdik ki, mən kiminləyəm, yalnız Heydər soruşurdu, kim mənimlədir. Bir dəfə dərsdən sonra tələbə yoldaşlarımız - Şərur uşaqları ilə ordubadlılar dalaşmışdılar. O zaman şərurlular Pirqamış məscidində, ordubadlılar, şahbuzlular isə Şahab məhəlləsindəki məsciddə qalırdılar. Bu hadisəni eşidib hamısını bir yerə yığdı. Onları dünyagörmüş adamtək başa saldı. Dedi ki, siz müəllim olacaqsınız. Gənc nəslə tərbiyə verəcəksiniz, özünüzsə döyüşürsünüz. İnanın, o vaxt Heydər elə danışdı ki, günahı olan da, olmayan da utandığından başını yuxarı qaldırmadı. Heydər çalışırdı ki, biz tələbələr bir ailə kimi səmimi, mehriban olaq".

❖ ❖ ❖

Heydər Əliyevdən, 13 yaşlı uşaqlıq dostunun fərasətindən, istedadından danışdıqca kövrəlir, səsi titrəyir Zərqələm xanımın. Xatirələr xatirələrə calanır, haşiyələri yumorlu hadisələr əvəz edir. Və hər birində də Heydər Əliyev böyüklüyü, aliliyi əks olunub. Özündən yaşlıları, müəllimləri heyran qoyan, 13 yaşında "sən general olacaqsan", "səninlə hamı fəxr edəcək" - proqnozlarını mütəmadi eşidən şəxsiyyətin yeniyetməlik həyatının maraqlı anları isə tükənməzdir...

❖ ❖ ❖

"...Bəzən məni Şahbuza yola salmaq üçün ötürürdü. Hətta dəfələrlə biletimi də alıb. Heydərin xeyirxahlığından danışdıqca qurtarmaz. Bu adam özü varlı ailədən deyildi. Ancaq bütün pullarını dostlarının ehtiyacına xərcləyirdi, belə ürəyi vardı Heydərin! 8 martın təzə bayram olan vaxtları idi. Oğlan uşaqları arasında pul yığırdı və ən çox özü qoyurdu, beləliklə, bizə hədiyyə alırdılar. Xalq oyunlarını yaxşı bilirdi. "Təkməcüt", "qayışa girmə" oynayırdıq, bütün oyunların qalibi də yalnız O idi. Uduzduğumuza görə oyunun qənimətini - kal ərikləri, ona çaqqala deyirdik, götürürdü. Ancaq sonra yenidən bərabər şəkildə aramızda bölürdü. Belə ədalətli, mərhəmətli insan idi Heydər!

Həm də təşkilatçılığı ilə fərqlənirdi. Bir neçə dəfə bizi kollektiv şəkildə teatra apardı. Naxçıvan teatrının böyük simalarından olan İbrahim Həmzəyevlə yaxın münasibətləri var idi. Yadımdan çıxmaz, Cəfər Cabbarlının "1905-ci ildə" tamaşası gedirdi. Bilet tapmaq çətin idi. Yenə də dadımıza Heydər çatdı. Özü də nəinki bütün qrupa bilet tapdı, hətta bu biletləri loja üçün əldə etdi. Heydərə görə Mirzə İbrahimovun "Həyat"ına da lojada baxdıq. Bir dəfə də gəldi ki, bəs böyük bəstəkarımız Üzeyir bəy Hacıbəyli SSRİ xalq deputatı kimi görüşə gəlib, gərək biz də gedək. Görüşdən bir saat əvvəl Heydərin özü zala gedərək bütün qrup üçün yer tutmuşdu.

Evləri texnikuma yaxın idi. Hər dəfə məndən "Anam deyir ki, Həsənin tapşırdığı qızı bizə niyə gətirmirsən? Gəlsin heç olmasa tutun nübarını etsin. Axı niyə utanırsan? Bizə niyə gəlmirsən" - deyə soruşurdu. Mən isə hər dəfə bir bəhanə ilə boyun qaçırırdım. Nə qədər olmasa da 30-cu illər idi...

Ancaq Heydərin ailə üzvlərini tanıyırdım. Anası İzzət xala xanım-xatın, gözəl qadın idi, çadrada gəzirdi, övladlarını da əsl azərbaycanlı, müsəlman kimi, bütün adət-ənənələrə riayət edən insanlar kimi böyüdür, tərbiyələndirirdi. Əlirza kişi sadə, zəhmətkeş, gülərüz, mehriban adam idi. Heydərin bacıları - Suğra və Şəfiqə ilə yaxından tanışlığım vardı. Həmişə oğlan yoldaşlarını yığıb evlərinə aparırdı. Onların həyətində böyük tut ağacı, sərin suyu olan quyuları var idi.

1939-cu ildə texnikumu bitirdik. Son dərsdə Heydər hamımızı bir yerə yığdı, ötən illərin xatirələrini danışdıq, gülüşdük. Heydər dedi ki, harada olsaq da, gərək biri-birimizi unutmayaq, heç olmasa toylara çağıraq. Təyinatla hərəmizi bir yerə göndərdilər. Hər ikimiz Şahbuz rayonuna, mən Nurs, o isə Qışlaq kəndinə düşdük.

Bir müddətdən sonra onunla görüşdük. Heç vaxt narazılıq etməyən Heydər bu dəfə problemlərdən danışdı. Dedi ki, işimi dəyişmək üçün maarif şöbəsinin müdiri Yeseyan məndən rüşvət istəyir, deyir ki, 30 manat verməsən, sənin işinə mane olacam. (1974-cü ildə Naxçıvan Muxtar Respublikasının 50 illiyi ilə bağlı keçirilən tədbirlərdə iştirak edən Heydər Əliyev yerli rəhbərlikdən Yeseyanı xəbər alır, deyirlər ki, hal-hazırda işləyir, ancaq xəstə olduğuna görə tədbirə gələ bilməyib. Heydər Əliyev xeyli gülür və deyir ki, "ermənilərin hamısı qorxaq olur, indi də o, xəstələnməyib, bura qorxduğuna görə gəlməyib. Bilir ki, mənim yaddaşım yaxşıdır, istədiyi rüşvəti unutmamışam". Müstəqillik illərində də Heydər Əliyev bir dəfə rəsmi tədbirdə bu hadisəni yada salmışdı).

Sonra mən ailə həyatı qurdum və ərim Kəlbəcər rayonuna maarif şöbəsinə müdir göndərildiyi üçün Naxçıvanı tərk etdim. 1945-ci ildə yenidən Şahbuza qayıtdıq. Bir qədər sonra rayon mərkəzindəki məktəbdə müəllim kimi fəaliyyətə başladım. Heydər artıq Bakıda idi. Qrup yoldaşlarımla tez-tez görüşürdüm, hamımız üçün Heydərin indi nə işlə məşğul olması, necə yaşaması maraqlı idi. Qohumları deyirdilər ki, Bakıda təhsil alır, işləyir, vəziyyəti yaxşıdır, hörmət qazanıb. Belə xəbərlərə çox sevinirdik, axı Heydər hamımızın güvənc yeri, iftixarımız idi. Sonrakı illərdə artıq dostum Heydər Azərbaycanda tanınmış insana, general Heydər Əliyevə çevrildi. Hər bir uğurunu yalnız mən və digər qrup yoldaşlarımız deyil, bütün Naxçıvan sevinclə izləyirdi.

1969-cu ilin iyul ayı idi. Bir də gördüm ki, qrup yoldaşımız, hazırda xalq yazıçısı olan Hüseyn İbrahimov sevinclə gələrək, "muştuluğumu ver, qardaşını (mehribanlığımıza görə qrupda Heydərlə mənə bacı-qardaş deyirdilər) Azərbaycana rəhbər qoydular". Həyəcandan bilmədim nə edim, sevincdən o qədər ağladım ki...

Heydər Əliyev haqqında müəllimlərimizin dedikləri sözlər tam doğrulurdu. O, Akim Abbasovun söylədiyi kimi general oldu. Lətif Hüseynzadənin dediyi kimi dahi şəxsiyyətə, hamının fəxr etdiyi insana çevrildi.

Mən Heydər Əliyevlə insanların necə fəxr etməsini də, ona nə qədər nifrət olunduğunu da görmüşəm. Bəli, ermənilər bu böyük azərbaycanlının uğurundan çox narahat olurdular və anlayırdılar ki, Heydər Əliyevin yüksəlişi Azərbaycanın yüksəlişidir, buna görə də, artıq ermənilərin fitvası daha keçməz. İşlədiyim Nurs kənd məktəbində həm azərbaycanlı, həm də erməni qrupları vardı. İnanın ki, hər gün Heydər Əliyevin üstündə bizim məktəbdə həm şagirdlər, həm də müəllimlər arasında dava idi. Ermənilər həmişə Heydər Əliyevi tənqid edir, bizsə daim onunla qürrələnirdik. Beləliklə də, sözümüz çəpləşirdi. Təsəvvürünüzə gətirin ki, Azərbaycan rəhbərini tanımayan, onu heç görməyən, hansı vəzifədə işləməsindən belə xəbərsiz olan 8-10 yaşlı azərbaycanlı və erməni uşaqları da Heydər Əliyevin üstündə dalaşırdılar.

Heydər Əliyev Moskvaya gedəndən, Siyasi Büroya üzv seçiləndən sonra sevincimdən daha bilmirdim ki, nə edim. Bütün Naxçıvan, Azərbaycan fəxr edirdi öz böyük oğluyla!"

❖ ❖ ❖

Söhbət boyu Zərqələm xanım əlindəki fotonu yerə qoymur, xatirələrini məhz bu şəklə nəzər sala-sala dilə gətirirdi. Hər baxışı yaddaşdan yeni bir hadisəni yada salır. 1939-cu ildə Naxçıvan Pedoqoji Texnikumunu bitirən tələbələrin xatirə şəkli... Heydər Əliyev öz dostlarının, qrup yoldaşlarının əhatəsində də məğrur görünür.

Zərqələm Əliyeva bu fotoşəkli ən qiymətli, əvəzolunmaz yadigar kimi qoruyur, saxlayır. Deyir ki, "Bu şəkilləri ən zəngin xəzinəyə dəyişmərəm. Onlar mənə çox əzizdir".

❖ ❖ ❖

"...Heydər Əliyevi hər dəfə Kremldə, ittifaq rəhbərlərinin əyləşdiyi rəyasət heyətinin ən görkəmli yerində görəndə, şəklinə, soyadına qəzetdə rast gələndə o qədər sevinirdim ki... Heydər Əliyevin adı BAM-dan, Kamçatkadan, Çindən, Afrikadan, Ərəbistandan... daha haralardan gəlmirdi ki?.. Hər yerdə Azərbaycanın adını ucaldırdı. Qorbaçov hakimiyyətə gələndən sonra Heydər Əliyevə olan mənfi münasibəti elə biz də hiss edirdik. Elə bil ermənilərin üzərindən böyük dağ götürülmüşdü, çox sevinirdilər.

Naxçıvanda danışırdılar ki, Azərbaycandan Heydər Əliyevin əleyhinə çoxlu anonim məktub göndərirlər. Sözün düzü, mən buna inanmırdım, axı Heydər Əliyevin əleyhinə nə yazacaqdılar ki? Heydər Əliyev Azərbaycanı yenidən qurdu, millətə təhsil, savad verdi, zəhmətkeşlərin adını ucaltdı, ermənilərə azərbaycanlıların qulu olduğunu sübut etdi - ancaq bunlardan şikayət etmək olardı. Onu da ki ermənilər bacarardı. Amma sonradan biləcəkdik ki, içimizdəki "ermənilər" də az deyilmiş.

1987-ci ilin ortalarında eşitdik ki, Heydər Əliyev xəstələnib. Çox narahat oldum, gecəm-gündüzüm olmadı, əlimiz də ki hara çatırdı... Bir gün qızım Nüşabə həkimin yanında olanda orada Heydər Əliyevin bacısı qızlarını gördüm. Ağlaya-ağlaya dayılarını xəbər aldım. Dedilər ki, infarkt olub, ancaq indi yaxşıdır, işə çıxmağa hazırlaşır. Çox sevindim, ancaq bu sevincim də uzun sürmədi.

Bir gün də eşitdim ki, Heydər Əliyev vəzifələrindən istefa verib. Bu xəbərdən bütün Naxçıvan bir-birinə dəydi. Bir qədər sonra isə erməni işğalının başlanmasından bütün Azərbaycan bir-birinə qarışdı. 1990-cı ilin yayınadək nə gecəmiz oldu, nə gündüzümüz. Blokadanın yaratdığı aclıq, səfalət, amansız soyuq, bir tərəfdən də erməni təcavüzü bizi olmazın müsibətlərə, dərdlərə düçar etmişdi.

Tez-tez Heydər Əliyevin qohumlarından onu xəbər alırdım. Deyirdilər ki, hər tərəfdən təzyiq var, oğlu İlhamı işdən çıxarıblar, özünü isə Azərbaycana qayıtmağa qoymurlar. Naxçıvanda danışırdılar ki, Heydər Əliyevi Qorbaçov ev dustağı edib. Bu sözü eşidəndə çox əsəbiləşirdim, kim Heydər Əliyevi ev dustağı etməyə cəsarət edər? Ona hələ 13 yaşında müəllimlərimiz "marşal", "general" deyirdilər. Onun qarşısında heç kəs dayana bilməz! Elə də oldu! 1990-cı ilin iyulunda bütün maneələri aradan qaldırdı, o boyda Moskvanı saya salmadı, Azərbaycana, Naxçıvana qayıtdı.

İnanın ki, əgər iyulda Heydər Əliyev Naxçıvana gəlməsəydi, avqust ayında bütün Naxçıvan aclığın, erməni təcavüzünün qarşısında məcburiyyət qarşısında qalıb İrana, Türkiyəyə gedəcəkdi. Ancaq Heydər Əliyevin elə quru nəfəsi bəs idi ki, naxçıvanlılar blokadaya, evdə aclıqdan ağlayan körpələrə baxmayaraq, yerlərindən tərpənməsinlər, sabaha ümidlə baxsınlar. Yalnız Heydər Əliyevin sayəsində Naxçıvan mövcudluğunu qorudu, insanları yaşadı. Təknədə çörək yox idi, ancaq hamı bilirdi ki, əgər Heydər Əliyev biznəndirsə, demək, yaşamağa, mübarizə aparmağa dəyər. Belə çətin günləri gördük, belə çətin günlərdən bizi xilas etdi Heydər Əliyev.

Həyat yoldaşım Naxçıvan Dövlət Universitetinin professoru Vəliyəddin Əliyev mütəmadi olaraq Heydər Əliyevlə görüşürdü. Heydər Əliyev ona dəfələrlə demişdi ki, "bacımı gətir, görüşək". Ancaq yoldaşım həmişə mənə deyirdi ki, o kişi o qədər işləyir ki, gecəsi-gündüzü yoxdur, sənlə görüşə nə qədər vaxt itirəcək. Mən isə ürəkdə bu sözlərlə razılaşmasam da, fikirləşirdim ki, əslində, düz söhbətdir, vaxt almaq olmaz.

Bir gün eşitdik ki, Heydər Əliyevi Bakıya çağırırlar. Bütün Naxçıvan yenə ayağa qalxdı. Düşünürdük ki, əgər onun qədrini Bakıda hakimiyyətdə olanlar bilmədilərsə, onun çıxışına belə Ali Sovetdə imkan yaratmadılarsa, biz də imkan verməri̇k ki, Heydər Əliyev həyatını təhlükəyə qoysun. Ancaq Heydər Əliyev də Heydər Əliyevdir... Nə vaxt məsuliyyətdən qaçdı, nə vaxt Azərbaycanı dar ayaqda qoydu ki?.. Heydər Əliyev necə ki, Naxçıvanı qorudu, xilas etdi, eləcə də bütün Azərbaycanı məhvdən qurtardı. Onun 10 illik fəaliyyətini sözlə qiymətləndirmək çox çətindir. Bircə onu deyim ki, nə uğur qazanmışıqsa, hamısına görə yalnız və yalnız Heydər Əliyevə borcluyuq.

2003-cü ilin aprel ayının 21-i idi. Televiziya qarşısında oturub Heydər Əliyevi seyr edirdim. Birdən həmin müdhiş səhnəni gördüm... Elə bil içimdən məni ildırım vurdu. Həm Heydər kimi bir dostumun ağır durumu məni için-için öldürürdü, həm də onun yıxılması məni yaman sarsıtmışdı. Axı o, heç vaxt, heç kimin qarşısında yenməyib...

Ancaq bu kişi Heydər Əliyevdi də, yenə səhnəyə qayıtdı, yenə general görkəmində hamıya sübut etdi ki, o - HEYDƏR ƏLİYEVDİR!!! Sevincdən o qədər ağladım, hönkürdüm ki...

Sonra Türkiyəyə, daha sonra Amerikaya, Klivlendə apardılar. Dəhşətli günlər idi, yalnız mən deyil, bütün Naxçıvan, Azərbaycan həyəcan içində idi, hamımız rəhbərimizdən xəbər gözləyirdik.

15 oktyabrda səhər sübh tezdən səsverməyə getdim, İlham Əliyevə səs verdim. Çünki əziz qardaşımın, sevimli dostumun adına layiq oğuldur. Ancaq Zərqələm Əliyeva olduğumu bir anlığa unudaraq özümə sual verdim, İlham Əliyevə səs verməklə düz edirəmmi? Həmin dəqiqədə suala cavab tapdım: İlham Əliyev Heydər Əliyev kimi bir dahinin imtahanından keçib, əla qiymət alıb və Heydər Əliyev də xalqa müraciətində yazıb ki, "Ona özüm qədər inanıram!" Demək, biz də ona inanmalıyıq, ancaq inanmaq azdır, İlham Əliyevə kömək etməliyik, ona mane olanları susdurmalıyıq!"

❖ ❖ ❖

Zərqələm xanım Heydər Əliyevin yoxluğuna hələ də inanmır. O müdhiş 12 dekabr gecəsini isə gözyaşları içində xatırlayır. Televiziyanın matəm sədaları altında eşitdiyi bəd xəbərin təsirindən özündən gedib, gözünü ancaq səhərisi açıb. Ötən dövrdə elə bir saat olmayıb ki, Heydər Əliyevi xatırlamasın, onunla olan şəkillərə baxmasın. Deyir ki, Heydər Əliyevin yoxluğuna ona görə inanmıram ki, belə insan heç vaxt yox ola bilməz, o, Azərbaycan qədər əbədidir! Həm də Prezident İlham Əliyev hər siyasəti, qabiliyyəti, sözünün kəsəri, hərəkəti, hətta oturuşu-duruşu ilə də elə bil Heydər Əliyevdir! Demək, Heydər Əliyevin yoxluğundan danışmaq olmaz...

*"...Fəxri xiyabana getdim, Heydər Əliyevin məzarı üstündə ağladım, hönkürdüm, ağı dedim. Ay Heydər, 68 il əvvəl məni sənə tapşırdılar, sağ ol, ay qardaş, məni etibarlı qorudun, arxam-dayağım oldun, dar günümdə dadıma çatdın... Sonra Naxçıvanı, Azərbaycanı qorudun. Ancaq biz səni qoruya bilmədik nadanlardan, rəzillərdən, amansız ölümdən... Bizi, məni bağışla... Əmanətindən - Azərbaycandan, oğlundan - İlhamdan arxayın ol. Səni qoruya bilməsək də, Azərbaycandan da, İlham Əliyevdən də muğayatıq, ay qardaş...*

*Allah sənə rəhmət eləsin, ay HEYDƏR..."*

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

*Bakı-Naxçıvan-Bakı*

***Məqalə 9 dekabr 2004-cü ildə "Azərbaycan" qəzetində dərc olunub. Zərqələm Əliyeva bir neçə il öncə Naxçıvan şəhərində vəfat edib.***

# Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 15-ci və 17-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1285-IVQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 4, maddə 309, № 7, maddələr 711, 713, № 8, maddə 894, № 12, maddə 1346; 2022, № 6, maddə 580, № 8, maddə 828) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 305.1.5-ci maddədə "qiymətli kağızlar və orderli" sözləri "sənədli" sözü ilə əvəz edilsin;

1.2. 35-ci fəslin adında "onları təqdim edən şəxsin hüquqlarının" sözləri "hüquqların" sözü ilə əvəz edilsin;

1.3. 327.1-ci maddənin birinci cümləsində "qiymətli kağızı və ya orderli" sözləri "sənədli" sözü ilə əvəz edilsin;

1.4. 327.2-ci maddədə "sənədi vermiş idarənin (şəxsin)" sözləri "həmin sənədin emitentinin" sözləri ilə əvəz edilsin;

1.5. 328-ci maddədə "sənədi vermiş idarənin (şəxsin)" sözləri "emitentin" sözü ilə əvəz edilsin;

1.6. 329.1-ci maddədə "vəsait ödəməni və ya verməni sənədi vermiş idarəyə (şəxsə)" sözləri "ödəniş edilməsini və ya vəsait verilməsini emitentə" sözü ilə və "sənədi vermiş idarəyə (şəxsə), qeydiyyat siyahısını saxlayana, qeydiyyatı aparana" sözləri "emitentə, Azərbaycan Respublikasının Mərkəzi Bankına və mərkəzi depozitara" sözləri ilə əvəz edilsin;

1.7. 331.1-ci maddədə "sənədi vermiş idarə (şəxs)" sözləri "emitent" sözü ilə əvəz edilsin;

1.8. 333-cü maddənin ikinci cümləsindən "əmanətin və ya" sözləri çıxarılsın;

1.9. 445.0.4-cü maddəyə "verilmiş" sözündən sonra "sənədli" sözü əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17, № 6, maddə 587, № 7, maddə 716, № 8, maddə 832) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 13.2.14.4-cü maddənin birinci cümləsində "istiqraz vərəqələrinin, sertifikatların, veksellərin, çeklərin və digər qiymətli kağızların" sözləri "istiqrazların, veksellərin və digər qiymətli kağızların, habelə çeklərin" sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsinə "banknotların," sözündən sonra "sənədli" sözü əlavə edilsin;

2.2. 13.2.14.5-ci maddədə "vasitələri ilə əqdlərə, forvard müqavilələrinə, opsionlara" sözləri "alətləri ilə əqdlərə" sözləri ilə əvəz edilsin;

2.3. 13.2.25-ci maddə aşağıdakı redaksiyada verilsin:

"13.2.25. Fyuçers - baza aktivinin müəyyənləşdirilmiş növdə və sayda əvvəlcədən razılaşdırılmış tarixə və qiymətə alqı-satqısı üzrə törəmə maliyyə alətidir.";

2.4. 13.2.26-cı maddə ləğv edilsin;

2.5. 13.2.66.4-cü maddədən "və ya əmtəə üzrə fyuçerslərin müştəri üçün və ya müştərinin adından aparılan ticarət" sözləri çıxarılsın;

2.6. 128.1-ci maddədə "sahibidirsə" sözü "mülkiyyətçisidirsə" sözü ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; 2020, № 6, maddə 675, № 7, maddələr 832, 852, 856; 2021, № 6 (I kitab), maddə 541, № 7, maddə 711; 2022, № 5, maddələr 428, 436, № 8, maddə 828) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 93.4.5-ci maddəyə və 164.1-ci maddənin birinci cümləsinə "qiymətli kağız" sözlərindən əvvəl "sənədli" sözü əlavə edilsin;

3.2. 129-cu maddə üzrə:

3.2.1. 129.2.2-ci maddədə "qiymətli kağızlar, istiqraz vərəqələri" sözləri "sənədli qiymətli kağızlar" sözləri ilə əvəz edilsin;

3.2.2. 129.3-cü maddədə "digər" sözü "sənədli" sözü ilə əvəz edilsin;

3.3. 251.7.1-ci maddədə "qiymətli kağızlar (o cümlədən səhmlər, borc öhdəlikləri, çeklər, konosamentlər, xəzinə biletləri, pul istiqrazları, lotereya biletləri və s.)" sözləri "sənədli qiymətli kağızlar, çeklər, konosamentlər, lotereya biletləri" sözləri ilə, "Dövlət" sözü "Mərkəzi" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2022-ci il*

# "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 682; 2007, № 12, maddə 1218; 2008, № 2, maddə 49, № 5, maddə 344; 2009, № 12, maddələr 948, 968; 2014, № 10, maddə 1151; 2018, № 4, maddə 640, № 12 (I kitab), maddə 2490; 2019, № 6, maddə 995, № 8, maddə 1360; 2020, № 5, maddə 521; 2021, № 6 (I kitab), maddə 557, № 12, maddə 1315) 39.3-cü maddəsindən "arayışının," sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2022-ci il*

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718, № 8, maddə 898, № 10, maddə 1094, № 11, maddə 1207, № 12, maddə 1314; 2022, № 5, maddə 427, № 8, maddə 829; Azərbaycan Respublikasının 2022-ci il 11 oktyabr tarixli 609-VIQD nömrəli Qanunu) 18-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 18.66-cı maddədən "arayışının," sözü çıxarılsın.
2. 18.66.3-cü maddə ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2022-ci il*

# Azərbaycan Pakistana 2 milyon dollar əlavə maliyyə yardımı göstərəcək



Yanvarın 9-da Cenevrədə BMT və Pakistanın birgə təşkilatçılığı ilə "İqlimə davamlı Pakistan" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransın əsas məqsədi ötən ilin avqust ayında Pakistanda baş vermiş təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılmasına və yenidənqurma işlərinin həyata keçirilməsinə dəstək məqsədilə lazımi maliyyə resurslarının cəlb edilməsindən ibarət olub.

Tədbirin açılış hissəsində təşkilatçı qismində Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif və BMT-nin Baş Katibi Antonio Quterreş çıxış ediblər, həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın videomüraciəti yayımlanıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, təşkilatçıların dəvəti ilə dünyanın 46 ölkənin, eləcə də 48 beynəlxalq maliyyə və vətəndaş cəmiyyəti institutunun nümayəndələrinin iştirak etdiyi tədbirdə Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov videokonfrans vasitəsilə çıxış edib.

Çıxışda ölkəmiz tərəfindən dost və qardaş Pakistan xalqı və dövlətinin ağrı-acısının bölüşüldüyü, 2010-cu ildən etibarən bu ölkədə fərqli illərdə baş vermiş daşqınların fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə indiyədək 7 milyon ABŞ dollarına yaxın məbləğdə töhfə verildiyi qeyd olunub. Pakistan tarixinin ən ağır təbii fəlakəti hesab edilən son daşqınların səbəb olduğu dağıntıların aradan qaldırılmasına dəstək olaraq 2022-ci ilin avqust ayında Azərbaycanın Pakistana 2 milyon ABŞ dolları məbləğində maliyyə yardımı göstərdiyi nəzərə çatdırılıb. Nazir müavini fəsadların miqyasını nəzərə alaraq, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən təşəbbüsə dəstək məqsədilə ölkəmiz tərəfindən əlavə 2 milyon ABŞ dolları həcmində humanitar məqsədli maliyyə yardımının göstəriləcəyi barədə Pakistan tərəfini və konfrans iştirakçılarını məlumatlandırıb.

2022-ci ildə baş vermiş təbii fəlakət ölkə ərazisinin üçdə birini su altında qoyaraq, 15 min insanın ölümünə və yaralanmasına, eləcə də 33 milyon insanın köçkün düşməsinə səbəb olub, beləliklə, Pakistan tarixində ən dəhşətli təbii fəlakətə çevrilib. Dünya Bankı Qrupunun hesablamalarına görə, həmin daşqınların nəticəsi olaraq təqribən 9 milyon insan yoxsulluğa düçar ola bilər. Pakistan BMT sistemi, Dünya Bankı Qrupu, Asiya İnkişaf Bankı və Avropa İttifaqının dəstəyi ilə Fəlakət Sonrası Ehtiyacların Qiymətləndirilməsi Planını hazırlayıb və daşqınların törətdiyi zərərin 14,9 milyard, iqtisadi itkilərin 15,2 milyard, yenidənqurma ehtiyaclarının isə 16 milyard ABŞ dollarını keçdiyini müəyyən edib. Yenidənqurma, reabilitasiya, bərpa və davamlılıq çərçivəsinin (4RF) əsasını təşkil edən plan dolanışığın və kənd təsərrüfatının canlandırılması, özəl yaşayış evlərinin yenidən qurulması, ictimai infrastrukturun bərpası və yenidən inşa edilməsi kimi əsas prioritetləri müəyyənləşdirib.

# Hesablama Palatası Ağdamda təlim keçirib

Ağdam şəhərindəki Konfrans Mərkəzində Hesablama Palatası tərəfindən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin və "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin əməkdaşları üçün təlim keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev çıxış edərək təlimin əhəmiyyətini vurğulayıb. Bildirib ki, Azərbaycan ərazi bütövlüyünü bərpa etməklə yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük inkişaf mərhələsinə keçid edir. Erməni işğalçılarının 30 ilə yaxın dövr ərzində dağıtdığı şəhər və kəndlərimiz dövlətimiz tərəfindən yenidən qurulur, genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Bu proses bilavasitə işğaldan azad edilmiş rayonlarımızın və bütövlükdə ölkənin iqtisadi, sosial qüdrətinin yüksəldilməsinə, eyni zamanda idarəetmənin təkmilləşdirilməsinə istiqamətlənib.

Diqqətə çatdırılıb ki, işğaldan azad olunan ərazilərdə aparılan təmir, tikinti və bərpa prosesləri zamanı dövlət satınalmalarının tam şəffaf və qanunvericiliyə uyğun aparılması, dövlət investisiya proqramlarına ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsi də Prezident İlham Əliyevin qarşıya qoyduğu ən vacib tapşırıqlardan biridir. Bugünkü təlimin də əsas məqsədi məhz bu proseslərə nəzarəti və koordinasiyanı, eyni zamanda tikinti işlərini həyata keçirən qurumların əməkdaşlarının daha da maarifləndirilməsidir. Hesablama Palatasının auditoru Vüqar İbrahimov çıxışında təmsil etdiyi qurumun işğaldan azad olunmuş ərazilərdə belə tədbir keçirməsindən qürur duyduğunu bildirib, təlim zamanı bəhs ediləcək mövzular haqqında məlumat verib, iştirakçılara uğurlar arzulayıb.

Sonra "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi, "Dövlət investisiya proqramlarının tərtibi, icrası, ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsi və nəzarətin həyata keçirilməsi, uçot və hesabatlığın qurulması", "Dövlət vəsaitləri hesabına obyektlərin tikintisi, qiymətqoyma sistemi, texniki nəzarət və istismara qəbuletmə prosedurları" mövzularında təlimlər keçirilib.

Təlim zamanı iştirakçıların mövzu ilə bağlı sualları cavablandırılıb.


# Lənkəran Dövlət Universiteti açıq tender elan edir

Tender 1 LOT üzrə keçirilir:

Lənkəran Dövlət Universitetinin Füzuli küçəsi 170 A ünvanında yerləşən 1-ci tədris korpusunun həyətində yerləşən Aqrar fakültəsi üçün Baytarlıq klinikasının layihə cizgiləri və layihə smetasının hazırlanması.

Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı - 100.00 (bir yüz) AZN**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış 2023-cü ilin yanvar ayı ərzində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Bank arayışı 2023-cü ilin yanvar ayı ərzində verilmiş olmalıdır.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar).*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması; Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir).*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin yanvar ayı ərzində verilmiş olmalıdır.*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin yanvar ayı ərzində verilmiş olmalıdır.*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; Məhkumluq haqqında arayış (DİN və ya "ASAN xidmət" mərkəzlərindən).*
13. *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə.*
14. *Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 fevral 2023-cü il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə **09 fevral 2023-cü il saat 17:00-a** qədər portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **10 fevral 2023-cü il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə portal vasitəsilə tanış ola bilərlər.

***Qeyd:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Sarsılmaz iradə

### Şaxtalı kəskin hava şəraiti ekofəalların Laçın-Xankəndi yolundakı aksiyasına mane ola bilmir

**R**usiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqlarının, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq ekofəallar və QHT təmsilçiləri Şuşa şəhərində - Laçın-Xankəndi yolunda aksiyanı davam etdirirlər. Hava şəraitinin kəskin dəyişməsinə, Şuşadakı qara, çovğuna baxmayaraq, bir aydır ki davam edən aksiyada etirazçılar yorulmadan tələblərini irəli sürür, şüarlarını səsləndirirlər.



Qeyd edək ki, aksiyanın 29-cu günündən etibarən Şuşaya qar yağıb və havanın temperaturu mənfi 13 dərəcəyə qədər düşüb. Amma ekofəalları, vətəndaş cəmiyyəti üzvlərini şaxtalı hava qorxutmur.

Aksiyaçılar ilk gündən Azərbaycan ərazilərindəki mis-molibden və qızıl yataqlarının qeyri-qanuni istismarının dayandırılmasını, həmin yataqlarda azərbaycanlı mütəxəssislərin monitorinq keçirməsinə rus kontingentinin şərait yaratmasını, Rusiya sülhməramlılarının komandanı Andrey Volkovun əraziyə gələrək onlarla danışmasını, təbii sərvətlərimizin qanunsuz şəkildə istismarı və başqa ölkələrə daşınmasını, həmçinin Ermənistanın ərazilərimizdə ekoloji terroru dayandırmasını tələb edirlər. Torpaqlarımız 30 il ərzində erməni vandalları tərəfindən məhv edilib, təbii sərvətlərimiz talanıb və həmin ərazilərdəki meşələrimiz qırılıb, çaylarımız güclü çirklənməyə məruz qalıb. Oxçuçaydakı çirklənmə səviyyəsi, çayın suyunun istifadə üçün yararsız hala gəlməsi, eyni zamanda biomüxtəlifliyin məhvi ermənilərin hələ də ekoloji terroru davam etdirdiyini göstərir. Ermənistan ərazisindən axıdılan tullantı suları çayın suyunu yararsız hala salır. Bununla bağlı dəfələrlə beynəlxalq təşkilatlara müraciət olunsa belə, heç bir reaksiya yoxdur.

30 gün ərzində bir gün belə olsun tələblərindən dönməyən, şüarlarını səsləndirən, yorulmadan iradə, əzm nümayiş etdirən aksiya iştirakçıları məsələ həll olunana qədər etiraz aksiyasını davam etdirəcəklər. Bu birliyi, əzmi şaxta, boran belə yıxa bilmirsə, görünən odur ki, heç kim sındıra bilməyəcək. Aksiya başladığı günlərdən ermənilər və onların havadarları etirazçıların Laçın-Xankəndi yolunu bağladığını, humanitar maşınların keçməsinə maneə yaratdığını deyərək aksiyanın məqsədinin, guya, başqa olduğunu, siyasi xarakter daşıdığını iddia etsələr də, 30 gün ərzində hər şey açıq-aşkar görünür. Gün ərzində, demək olar ki, dəfələrlə Rusiya sülhməramlılarına məxsus nəqliyyat vasitələri, humanitar maşınlar maneəsiz şəkildə bu yoldan keçirlər. Aksiya iştirakçıları yoldan çəkilərək avtomobillərin keçidi üçün dəhliz açır və onların keçməsinə şərait yaradırlar. Yəni ermənilər aksiyaya başqa don geydirməyə çalışsalar da, bu, mümkün deyil. İlk gündən deyildiyi kimi, bu, ekofəalların dinc aksiyasıdır. Elə buna görədir ki, ilk gündən təhlükəsizlik tədbirlərinə ciddi əməl olunur və hər hansı insident yaşanmır. Aksiyaçılar dinc şəkildə şüarlarını səsləndirir, tələblərini irəli sürür, aksiya çərçivəsində fləşmob keçirir və dövlət himnimizi səsləndirirlər.

44 günlük Vətən müharibəsindən sonra daha acınacaqlı vəziyyətə düşən Ermənistan isə təkbaşına heç nə edə bilmədiyini görərək, hər dəfə sığınmağa yer axtarır. Təkcə yalan məlumatların, riyakarlığın köməklərinə gəlmədiyini görüb özlərinə dəstək umurlar. Təbii ki, onlara qucaq açanlar da olur. Hər vəchlə aksiyanın məqsədinin başqa olduğuna dünya ictimaiyyətini inandırmağa çalışan ermənilər bunun alınmadığını görüb Fransadan yardım istədilər. Təbii ki, ermənipərəst dövlət onların istəklərini geri çevirmədi. Azərbaycan əleyhinə kampaniyaya başladılar və ölkəmizə qarşı BMT Təhlükəsizlik Şurasında qətnamə qəbul edilməsi üçün səy göstərdilər. Səyləri bir nəticə vermədi, iclas çağırılmasına nail olsalar da, erməniپərəst, qərəzli, ədalətsiz sənəd qəbul olunmadı.

Ümumiyyətlə, çox ağır vəziyyətdə yaşayan Ermənistan öz vətəndaşlarına sahib çıxa bilmədiyi halda Qarabağda yaşayan ermənilərə də ciddi zərbə vurur. Azərbaycan hər zaman Qarabağda yaşayan ermənilərin Azərbaycan vətəndaşlığını qəbul etdikləri halda digər vətəndaşlarla eyni hüquqa malik olacaqlarını deyir və onların arxasında da durur. Qarabağ ermənilərinin acınacaqlı durumu göz qabağındadır. Bir neçə gün əvvəl Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazidən mülki erməni sakin Azərbaycan Ordusunun postlarının birinə yaxınlaşaraq kömək istəyib, ac olduğunu, üşüdüyünü və siqaret istədiyini bildirib. Bu cür pis vəziyyətdə olan ermənilərin sayı bir deyil, minlərlədir.

Bizimkilər erməni sakininə yemək, siqaret verib, Şuşada - Xankəndi-Laçın yolu üzərindəki aksiya yerindən Xankəndiyə yola salıblar. Bu bir daha Azərbaycanın hər zaman humanist mövqedə olduğunu göstərir. Bütün bunlar eyni zamanda Qarabağda yaşayan erməni əhalisinin hansı acınacaqlı vəziyyətdə yaşadığını, onların çıxış yolunun, təhlükəsizliyinin isə yalnız Azərbaycana bağlı olduğunun sübutudur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Sülhməramlılara aid 23 təchizat avtomobilinin aksiya ərazisindən sərbəst keçidi təmin olunub

Aksiyanın 29-cu günündə də Rusiya sülhməramlılarına məxsus avtomobillərin Laçın-Xankəndi yolunda dinc məqsədlə təşkil olunan aksiya ərazisindən sərbəst keçidi təmin olunub.





AZƏRTAC-ın aksiya yerinə ezam olunmuş müxbiri xəbər verir ki, bu dəqiqələrdə sülhməramlılara məxsus 23 təminat-təchizat avtomobilinin Xankəndidən Laçın istiqamətinə doğru hərəkətinə şərait yaradılıb.

Bu bir daha onu göstərir ki, ərazidə hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin olunur. Heç də siyasi xarakter daşımayan aksiya humanitar məqsədlərə xidmət edir. Qeyd edək ki, Ermənistan mətbuatında yayılan və etirazçıların, guya, Laçın-Xankəndi yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır. Xatırladaq ki, azərbaycanlı ekofəallar Qarabağda faydalı qazıntı yataqlarının istismarına qarşı Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

## Laçın-Xankəndi yolunda erməni vəhşiliklərini əks etdirən fotoların yer aldığı plakatlar quraşdırılıb









Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası 29-cu gündə də dinc şəkildə davam edib.

AZƏRTAC xəbər verir ki, ekofəallar yüksək iradə nümayiş etdirərək tələblərinin yerinə yetirilməsi üçün ənənəvi şüarlarını davam etdirirlər.

Hazırda aksiya yerində üzərində işğaldan azad olunmuş ərazilərimizdə ermənilərin törətdiyi vəhşilikləri əks etdirən fotoların yer aldığı plakatlar dəmir dirəklərlə yerə bərkidilib. Plakatların üzərində ingilis dilində "Massively cut tress. Gubadly", "Raw lime mines of Zangilan", "Massively cut tress.Lachin", "Burnt area with cut tress. Kalbajar", " District of Kalbajar, village ofHeyvaly", "Gold and sulfide mines of Soyudlu (Zod). Kalbajar", "Quartz-gold mine Vejnali. Zangilan", "Lime mines of Dovlatyarli. Fuzuli" kimi fikirlər yer alıb.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq azərbaycanlı ekofəallar dekabrın 12-dən Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dinc aksiyaya başlayıblar.

## Vətəndaşların sosial rifahı dövlət siyasətinin prioritetidir

### Bu istiqamətdə həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır







**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev bir neçə gün əvvəl "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən 1 yanvar 2023-cü ildən etibarən minimum əməkhaqqı məbləği 345 manat, minimum əmək pensiyası isə 280 manata çatdırılıb. Bu sərəncam sosial məsələlərin cari ildə də prioritet olacağından xəbər verir.**
**Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.**

### 800 mindən çox vətəndaş faydalanacaq

Milli Məclisin deputatı Vüqar Bayramov qeyd edib ki, sosial siyasət dövlətimizin prioritetlərindəndir: "Ona görə də ölkədə qəbul edilən bütün qərarlarda vətəndaşların sosial müdafiəsinin təmin edilməsi əsas götürülür. Azərbaycan Prezidentinin "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncamı da bu qəbildəndir. Sərəncama əsasən yalnız minimum əməkhaqqı və pensiya deyil, həmçinin sosial müavinətlərin və təqaüdlərin də məbləğlərinin artırılması nəzərdə tutulur. Bu sənədlə Nazirlər Kabinetinə 10 gün müddətində sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini Azərbaycan Prezidentinə təqdim etməsi tapşırılıb. Bu isə o deməkdir ki, yanvarın 15-dək Nazirlər Kabineti sosial müavinətlər və təqaüdlərin artımı ilə bağlı təkliflərini dövlət başçısına təqdim edəcək. Bu onu deməyə əsas verir ki, yaxın zamanlarda sosial müavinətlərin və təqaüdlərin artımı ilə bağlı da sərəncam olacaq".

Deputat bildirib ki, müavinətlərin növləri "Sosial müavinətlər haqqında" qanunla müəyyənləşir: "Həmin müavinətlərdən hansının və eləcə də neçə faiz artacağı isə Nazirlər Kabineti tərəfindən təkliflər hazırlandıqdan sonra bəlli olacaq. Çox yaxın zamanlarda sosial artımlar ilə bağlı yeni sərəncamlar olacaq".

V.Bayramovun sözlərinə görə, Prezident İlham Əliyevin imzaladığı son sərəncam sosial təminata daha çox ehtiyacı olan vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi baxımdan vacibdir: "Sərəncamla minimum əməkhaqqı 345 manat müəyyən edilib. Həmçinin minimum pensiya 280 manata çatdırılacaq, müavinət və təqaüdlər artırılacaq. Artımlar yanvarın 1-dən hesablanacaq. 700 min vətəndaşımızı əhatə edəcək minimum əməkhaqqındakı artım üçün dövlət büdcəsindən əlavə 450 milyon manat ayrılacaq. Minimum pensiyadakı artımı da nəzərə alsaq, maaş və pensiyalar üzrə artımdan 800 mindən çox vətəndaşımız birbaşa faydalana biləcək. Bu o deməkdir ki, hansı sektorda çalışmasından asılı olmayaraq, minimum əməkhaqqı alan bütün vətəndaşlarımızın maaşları artacaq. Yəni artımlar özəl sektoru da əhatə edəcək. Deməli, yalnız dövlət sektorunda deyil, özəl sahədə də bu ildən etibarən 345 manatdan az əmək haqqı verilə bilməz".

Deputat onu da vurğulayıb ki, bu sərəncamla Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq minimum əməkhaqqı 200 dollarlıq həddi keçdi: "Minimum əməkhaqqı bu il üçün müəyyən olunan yaşayış minimumunu 40,2 faiz üstələyəcək. Eyni zamanda digər sahələrdə də artım üçün baza formalaşacaq. Sosial proqramlarda artımlar il ərzində davam etdiriləcək".

### Ölkə rəhbərliyi sosial məsələlərə xüsusi diqqətlə yanaşır

Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, sözügedən sərəncamın əsas hədəf və məqsədi xalqımızın rifah halının daha da yaxşılaşdırılması və gücləndirilməsidir: "Ümumiyyətlə, son illər Azərbaycanda vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində davamlı olaraq müxtəlif tədbirlər həyata keçirilir. 2023-cü ilin də ən önəmli hadisələrindən biri ölkə vətəndaşlarının əməkhaqqı, pensiya və müavinətlərinin artırılması hesab oluna bilər. Nəzərə almaq lazımdır ki, dövlət büdcəsinin əhəmiyyətli bir hissəsi hər zaman olduğu kimi, bu il də əhalinin sosial müdafiəsinə yönəldilib. Bu gün biz qısa zaman kəsiyində pensiyaların baza hissəsinin artdığının şahidi oluruq. Minimum əməkhaqqının 300 manatdan 345 manata qədər qaldırılması isə özlüyündə əhəmiyyətli hadisə hesab olunmalıdır".

Deputat işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgəsində böyük quruculuq və abadlıq işlərinin həyata keçirilməsi ilə yanaşı, dövlətimizin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması yönündə diqqət və qayğısının təqdirəlayiq olduğunu bildirib: "Xüsusi vurğulamaq lazımdır ki, bu sərəncamdan yüz minlərlə vətəndaşımız faydalanacaq. Bu onu göstərir ki, Prezident İlham Əliyevin sosial siyasətinin əsas prioritet istiqaməti vətəndaşların rifah halının davamlı yaxşılaşdırılmasıdır. Ölkə rəhbərliyi sosial məsələlərə olduqca həssas və diqqətli yanaşır. Bu gün Azərbaycan sözügedən sahədə bir sıra ölkələrlə müqayisədə çox öndədir. Odur ki, əvvəlki sərəncamlar kimi, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncam da vətəndaşlarımızın sosial müdafiəsinə, onların güzəranının yaxşılaşdırılmasına müsbət təsir göstərəcək".

### Əhalinin gəlirlərinin və pensiya kapitalının artımı inflyasiyaya uyğunlaşdırılır

Milli Məclisin deputatı Aydın Hüseynov bildirib ki, minimum əməkhaqqının artması sosial normativ olduğuna görə, bu, bir çox sahələrdə əməkhaqqının artımı üçün hüquqi baza yaratmış olur: "Yəni hazırda 345 manatdan aşağı əməkhaqqı olmayacaq. Bu isə təxminən 800 mindən çox vətəndaşın artımdan faydalanmasına səbəb olacaq. Minimum əməkhaqqının artması növbəti mərhələdə pensiyaların indeksasiyası zamanı pensiya məbləğlərinin də artmasını şərtləndirəcək. Digər tərəfdən, pensiyaları əməkhaqqı məbləği əsasında müəyyənləşən şəxslərin pensiyalarında əlavə artımlar da baş verəcək. Bu artımlar dolayısı ilə yoxsulluq səviyyəsinin aşağı düşməsinə xidmət edəcək, eyni zamanda əhalinin gəlirlərini və pensiya kapitalının artımını nisbətən inflyasiyaya uyğunlaşdıracaq".

Aydın Hüseynov bildirdi ki, bu siyasət fərdi sahibkarlıq subyektlərinə də müsbət təsir göstərəcək: "Minimum əməkhaqqının məbləğinin 345 manata çatdırılması dövlət və özəl sektorda yüz minlərlə şəxsin əməkhaqlarının artımına səbəb olacaq. Belə ki, vahid tarif cədvəli üzrə işləyənlərin əməkhaqqı artımı 700 min nəfərdən çox şəxsə şamil olunacaq. Bunun təxminən 400 mini dövlət, 300 mini qeyri-dövlət sektorlarını əhatə edir. Beləliklə, bu sosial tədbir son 4 ildə davam etdirilən sosial paketin məntiqi davamıdır. Nəzərə almaq lazımdır ki, son illərdə minimum əməkhaqqı 3 dəfə artaraq 130 manatdan 345 manata çatdırılıb. Minimum əməkhaqqının artımı əhalinin gəlirlərinə müsbət təsir etməklə, həm də əmək bazarına mühüm fayda verir, işçi qüvvəsinin rəqabət qabiliyyətini, məhsuldarlığını artırır, əməyin leqallaşdırılmasını təmin edir".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İlk qar - ilk sınaq




# Qriplə necə mübarizə aparmalı?

## Qeyri-sabit hava şəraiti və temperatur dəyişkənliyi infeksiyaların da sürətlə yayılmasına səbəb olur



Hazırda qrip virusu bir çox ölkələrdə geniş yayılıb. Xüsusilə Avropa ölkələrində qrip infenksiyaları tüğyan edir. Virusun kəskin artımı həyata mənfi təsir göstərir, dərman vasitələrinin tədarükündə çətinliklər yaradır. Bir neçə ölkədə xəstəxanaların iş yükü artdığından təcili olmayan müayinələr müəyyən müddət təxirə salınıb.

Avropada qriplə xəstələnənlərin COVID-19-a yoluxanların sayına çatdığı bildirilir. Almaniya, Slovakiya və Belçikada rəsmi olaraq qrip epidemiyası elan olunub. Gürcüstan da qrip virusunun tüğyan etdiyi ölkələrdəndir. Ölkədəki ümumi xəstələrin 50 faizini qripə yoluxanlar təşkil edir. Avropa İttifaqı (Aİ) ölkələrinin nümayəndələri yaranmış vəziyyəti müzakirə etmək üçün Brüsseldə görüş keçiriblər.

### Bol maye və düzgün qidalanma

Kliniki Tibbi Mərkəzin Səhiyyənin təşkili və innovasiya şöbəsinin həkim-epidemioloqu Bənövşə Abdullayeva deyir ki, son həftələr kəskin respirator virus yoluxması ilə müraciət edənlərin sayında artım müşahidə edilir: "Bayramla əlaqədar ölkələr və rayonlararası gediş-gəlişlər, sıx təmasların yaranması da qripə yoluxma hallarının artmasına səbəb olub. Yoluxma hallarına əsasən yaşlılar, immun sistemi zəif olanlar və yanaşı xəstəliklərdən əziyyət çəkənlər, eləcə də azyaşlılar arasında rast gəlinir. Xəstələr əsasən baş və boğaz ağrısı, halsızlıq, yüksək hərarət, burun tıxanıqlığı, əzələ ağrıları və öskürək kimi şikayətlərlə müraciət edirlər".

B.Abdullayeva deyir ki, virus infeksiyaları ilə yoluxma hallarında artım əsasən qış fəslində müşahidə edilir: "Qış aylarında qapalı məkanlarda hava sirkulyasiyasının azalması, belə yerlərdə insanların sıx toplaşması, immunitetin fəsli zəifləməsi kimi faktorlar yoluxmaların artmasına səbəb olur. Kəskin respirator virus infeksiyasına yoluxanlara yataq rejimi, bol maye və vitamin qəbulu tövsiyə olunur. Xəstəlik şiddətləndiyi təqdirdə xəstələr təcrid olunaraq həkimə müraciət etməlidirlər".

Həkim-epidemioloq qeyd edir ki, vaxtında müalicə olunmayan virus infeksiyaları müxtəlif ağırlaşmalara səbəb olur: "Qrip infeksiyaları ürək-damar xəstələri üçün olduqca təhlükəlidir. Bəzən infeksiyalara görə ürək ritminin pozulması kimi hallar müşahidə edilir. Bunlar, adətən, ürəyin atriyalarında əmələ gəlir. Əgər xəstədə ürək çatışmazlığı problemi varsa, qrip vəziyyəti daha da ağırlaşdıra və infarkt riskini artıra bilər".

### Əsas profilaktik metod vaksinasiyadır

Bənövşə Abdullayeva bildirir ki, kəskin respirator virus infeksiyalarının əsas profilaktik metodu vaksinasiyadır: "Vaksin orqanizmin immunitetini artıraraq sağlamlığın qorunmasına kömək edir. Hazırda Hollandiya istehsalı "İnfluvac Tetra" vaksini istifadə olunur. Qoruyuculuğu yüksək olan bu zəiflədilmiş inaktiv vaksinlər bütün mövsüm boyu insanı xəstəlikdən qoruyur. İnsanlar yaşadıqları ərazi üzrə poliknikalara müraciət edərək ödənişsiz olaraq peyvənd vurdura bilərlər".

"Orqanizmin immunitetinə uyğun olaraq yoluxmanın gedişatı da fərqli ola bilər. Eyni zamanda həm koronavirusa, həm də qripə yoluxmaq mümkündür. Bu, daha ağır nəticələrə səbəb ola bilər. Belə ki, hər iki xəstəliyin əsas zərbə vurduğu orqan ağciyərlərdir. Ona görə də vaksinasiya tövsiyə edilir", - deyə B.Abdullayeva bildirib.

Həkim-epidemioloq deyir ki, balanslaşdırılmamış və yetərsiz qidalanma da immuniteti zəiflədərək orqanizmi müdafiəsizləşdirir: "Kəskin respirator infeksiya ilə yoluxma zamanı maye və mineral balansını təmin etmək vacibdir. Temperaturun qalxdığı dövrlərdə maye qəbulu artırılmalı və bədən yetərli enerji ilə təmin olunmalıdır. Mövsümi meyvə və tərəvəzlərin gündəlik qida rasionuna əlavəsi də vacibdir".

"Otaqların havası mütəmadi olaraq dəyişdirilməli, qapı dəstəkləri tez-tez silinməlidir. Əllərin müntəzəm yuyulması, xüsusilə də insanların çox olduğu qapalı, havasız məkanlarda maska taxılması kimi sadə, lakin effektli ehtiyat tədbirlərini yaddan çıxarmamalıyıq. Əgər biz ayıq-sayıqlığımızı qoruyub saxlasaq və effektivliyindən əmin olduğumuz tədbirlərin köməyilə özümüzü qorusaq, bu xəstəliklərin öhdəsindən gəlməyi bacararıq", - deyə həkim-epidemioloq bildirib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*




# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 12.01.2023-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# İrəvanda anti-Rusiya etirazları böyüyür

## Ermənilər artıq Moskvanı işğalçı adlandırdılar

Ermənistan və Rusiya arasında münasibətlərin son bir il ərzində kifayət qədər pisləşməsi, iki ölkənin əlaqələrinin kəskin ziddiyyətlər mərhələsinə qədəm qoyması müşahidə olunmaqdadır. Bütün bunların kökündə dayanan başlıca amil isə baş nazir Nikol Paşinyanın Rusiyanın mövqeyinə zidd addımlar atması, komandasında Moskva əleyhinə olan şəxslərin çoxluq təşkil etməsidir.







Məğlub ölkədə Rusiya əleyhinə keçirilən aksiyaların sayının çoxalması, az qala cəmiyyətin bütün təbəqələrində Moskvanın sərt tənqid hədəfinə çevrilməsi də anti-Rusiya siyasətini təsdiq edir. Son belə aksiya "Milli Demokratik Qütb" siyasi hərəkatının Rusiyaya qarşı keçirdiyi etirazdır. Aksiya Gümrü şəhərindəki Rusiyanın 102-ci hərbi bazasının qarşısında baş tutub. İştirakçılar Laçın dəhlizində yaranmış vəziyyətə görə sülhməramlıları ittiham edən şüarlar səsləndiriblər. Polis hərbi bazaya gedən yolu bağlayıb. Ermənistan polisinin ictimaiyyətlə əlaqələr üzrə idarəsinin rəisi Zarzand Qabrielyan bildirib ki, aksiyada 65 nəfər saxlanılıb.

Gümrüdəki etirazçılar əllərində "Rusiya düşməndir", "İşğalsızlaşma, sovetsizləşmə, ruslaşsızma" yazılı plakatlar tutublar. Həmçinin bəyan ediblər ki, Ermənistan KTMT-dən çıxmalı və "Rusiya işğalına" "yox" deməlidir.

Aksiya zamanı etirazçılar Rusiya Prezidenti Vladimir Putini təhqir edib, onun ünvanına ağır söyüşlər səsləndiriblər. Bununla yanaşı, ermənilər "Slava Ukraine" şüarını səsləndirərək Ukraynaya dəstəklərini ifadə ediblər. Bildiriblər ki, Rusiya hərbçilərini "işğalçı" elan edə bilərlər. "Biz dünyaya göstərəcəyik ki, Ermənistan 102-ci baza adı ilə Rusiya qoşunları tərəfindən işğal edilib", - etirazçı Vahe Qasparyan bildirib.

"4rd.am" nəşrinin "İrəvanın Moskvaya layiqli cavabı: Rusiyada başa düşməlidirlər ki, vəziyyət dəyişib" sərlövhəli məqaləsi bir çox məsələlərə aydınlıq gətirib. Ermənistanın baş naziri Nikol Paşinyanın mətbuata müsahibələrindən sitat gətirilən məqalədə vurğulanır ki, Paşinyan belə mülahizə yürüdür ki, İrəvan Rusiya ilə münasibətlərdə çoxəsrlik komplekslərdən yaxa qurtarmalı və özünü bərabər tərəfdaş kimi göstərməlidir.

Jurnalist baş nazirdən soruşur ki, İrəvan Ermənistan ilə Rusiyanın müttəfiqlik münasibətlərinin qorunub saxlanmasına Moskvanın şübhələrini aradan qaldıra bilibmi? Paşinyan bu sualın cavabında deyib: "Biz suveren tərəfdaşlarıq və əgər onların bizə şübhə etmək hüququ varsa, bizim də onlara şübhə etmək hüququmuz var". Paşinyan daha sonra deyib: "Mən hesab edirəm ki, bizim münasibətlərimiz bütövlükdə bu əsasda inkişaf etməli və fasiləsiz yaxşılaşmalıdır. Biz hər kəsin ləyaqətinə hörmət edən münasibətlər qurmalıyıq. Əminəm ki, bizim bugünkü münasibətlərimiz bu cür ləyaqətlə əlamətdardır. Kimsə bizə nə qədər şübhə edə bilərsə, bizim də həmin tərəfə eynilə o qədər şübhə etmək hüququmuz var. Əgər birisi hesab edirsə ki, biz tərəfdaş kimi öz öhdəliklərimizi lazımi səviyyədə yerinə yetirmirik, bizim də belə hesab etməyimizə icazə verilir. Qoy heç kəs elə düşünməsin ki, şübhələrin aradan qaldırılması yalnız bizim işimizin bir hissəsi olmalıdır".

Qeyd olunur ki, indi hər bir ölkə yalnız öz maraqlarını güdür. Kreml Paşinyandan inciyir, Ağ Ev isə onu öz tərəfinə çəkmək arzusundadır. Hər iki tərəf həm vəd verir, həm də hədələyir. Ermənistan da həmişə olduğu kimi, bazar daxilində satılmalı olan keyfiyyətsiz mal kimi qalıb ortada".

Beləliklə, görünür ki, hər iki ölkə ilə münasibətlərin pisləşməsi fonunda Ermənistan sosial-iqtisadi, siyasi cəhətdən ağır vəziyyətə düşərək regionda daha zəif mövqe sahibinə çevriləcək. Belə ki, Ermənistanda sürətlənən iqtisadi tənəzzül bu ölkədə indi yeni işsizlər ordusunun yaranmasına, fəaliyyətini dayandıran müəssisələrin sayının sürətlə artmasına səbəb olur.

Erməni mediası yazır ki, bu gedişlə ölkədə hansısa istehsaldan danışmaq mümkün olmayacaq. Elə İkinci Qarabağ müharibəsindən sonra Paşinyan komandasının böyük əksəriyyətini yeni kadrlarla əvəzləsə də, bu hansısa ciddi dəyişikliyə gətirib çıxarmayıb. Bir çox dövlət qurumlarında məmurların ixtisarı da vəziyyəti dəyişmir. Özü də bu ixtisarlar güc strukturlarını əhatə etmir. Bu fonda da erməni mediası yazır ki, əslində, Nikol Paşinyan hərbi-polis rejimi yaratmaqda maraqlı olduğu üçün ixtisar prosesini bu şəkildə aparır. Çünki məhz hərbi-polis rejimi şəraitində o, hakimiyyətini təhlükəsiz sayır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# ALLAH RƏHMƏT ELƏSİN!

Eldar Əzizov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"German Hospital" Tibb Mərkəzinin kollektivi mərkəzin təsisçisi İlham Əli-Səftər oğlu Əliyevə əzizi, Siyəzən RPŞ-nin əməkdaşı, polis leytenantı

**ELMİR ƏSGƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" Nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4460
Sifariş 35

Qiyməti 40 qəpik